Feyruz Bağırov

NAXÇIVANIN QISA TARİXİ



Naxçıvan-2008

FEYRUZ BAĞIROV

NAXÇIVANIN QISA TARİXİ

NAXÇIVAN-2008

Dünyada Nuh tufanından sonrakı İnsanlar müxtəlif yerlərdə məskunlaşmışlar. Peyğəmbərin böyük oğlu Ham nəslindən olan Kənanın oğlu Böyük Nəmrud Fərat çayı sahillərində yaşayaraq ərazilərə hakim olmuşdur. O, Allahın doğru yolundan azaraq bütpərəstliklə məşğul olmuş, rəiyyətini məcbur edərək uca qüllə tikdirmişdir ki, bir daha dünyanı su bassa, qülləyə çıxıb xilas olsun.

Lakin çox çəkmədi ki, qüllə uçub dağıldı və eyni dildə danışan əhali bir-birlərini başa düşməyərək dünyanın müxtəlif tərəflərinə dağıldılar. Bundan sonra isə həzrəti Nuhdan qalma din unudularaq, müxtəlif təriqətlər yaranmışdır[1].

Bəşər cəmiyyəti arasında tayfalar böyüyərək dövlətlərin yaranmasına səbəb olur, millətlər şeytanın vəsvəsəsinə uymaqla, torpaq ərazilər üstündə qanlı müharibələr törədilir.

Qafqazda yaşayan millətlərdən biri də, Azəri türk dilli xalqı olmuşlar ki, onlar Allahın dinindən azaraq oda (atəşə), günəşə, ulduzlara, bütlərə və heyvanlara sitayiş etmişlər.

Naxçıvan xalqının əsas dinləri atəşpərəstlik olaraq dini qanunları isə Zərdüştün "Avesta" kitabı idi. (Həmin kitab nümunələrini rumlular (İsgəndər Zülqərneyn (E.ə. 356-323) əmri ilə tonqallarda yandırmışlar.)

Naxçıvan çuxurundakı atəşpərəstlər sonradan Dəclə ilə Fərat çayları sahillərində də, (Mesopotomiyada) yaşamışlar. Şumer tayfalarının yazılı ədəbi dastanlarında deyilir ki, Nuh (ə) peyğəmbərin gəmisi üzərək Qaf (Qafqaz) dağlarında dayanmışdır. Doğrudan da indiki Ordubad rayonundakı Gəmi qaya yaylasında qədim İnsanların qayalarda çəkdikləri rəsmlər qalmaqdadır. Son illərdə Naxçıvan MR Ali Məclisi rəhbərliyinin qərarı ilə Gəmi qaya rəsmlərini (petroqliflərini) elmi şəkildə öyrənilmişdir. Azərbaycan M.E.A-nın və Naxçıvan şöbəsinin bir qrup alim və mütəxəssisləri kompleks halında Naxçıvandakı qədim qaya üstü rəsmlərin tarixi araşdırmasını öyrənməklə xalqımıza çatdırmışlar.

Tədqiqatçılar bir daha sübut etmişlər ki, Naxçıvan diyarı qədim İnsanların yaşayış məskənləri olmuş adı müqəddəs kitablarda çəkilən Nuh (ə) peyğəmbərin məzarı (məzar yeri) də, dövrümüzədək qalmışdır.

III əsrin ortalarında Naxçıvan torpağının Sasanilər (Şapur) ələ keçirirlər və ərazidəki qədimdən qalma dini abidələri dağıdırlar.

1. "Detiskaya Bibliya" (rusca), Stokholm-1990, 11:1-9 və A. Ə. Axundzadə "Müqəddəs Peyqəmbərlər tarixi", Bakı 1993, səh. 16.

Dördüncü əsrdə qədim Naxçıvan ölkəsi yaşayaraq tərəqqi etmişdir.

Naxçıvanda dini, sosial və mədəni quruculuq işləri inkişaf etmiş, üzərində "Nəxç" yazıları olan sikkələr alqı-satqıda (dövriyyədə) olaraq, iqdisadi mədəniyyəti gücləndirmişdir.

Sonrakı əsrlərdə Naxçıvan (Azərbaycan) torpaq ərazilərini Ərəb xilafəti tutaraq, özlərinə aid müxtəlif sikkələr kəsdirmişlər.

VII-VIII əsrlərdə Naxçıvanda İslam dini geniş yayılaraq, tədriclə digər dinlər aradan götürülmüşdür. Lakin bütün bunlarla yanaşı əhali gizlincə atəşpərəstiliklə bütpərəstiliyə də sitayiş etməklə maraq göstərmişlər.

Haliyyədə xalqımız tərəfindən ildə bir dəfə olaraq Zərdüşt qanunlarından bəhrələnən "Novruz" (Od) bayrda atəşpərəstliyin ənənələri qalmışdır. Əfsanəvi Zərdüşt peyğəmbərin mələklərindən olan Novruz, Od (atəş), Su, Hava (yel) və Torpağı cilovlayaraq, İnsanlara bərəkət tövhəsi gətirir. Novruzu hər evdə (ocaqda) görmək istəyənlər isə, buğda göyərdərək Səməni halvası bişirməklə atəşfəşanlıq edərdilər.

Bütün bu od (atəş) bayramı deyilən Novruz ənənələri xalqımızın milli mədəni folkloruna bağlanmışdır. Zərdüştün "Avesta"sında gecə ilə gündüzün bərabərləşdiyi anda (martın 21-də) Xeyirlə Şər mələkləri barışaraq aləmlərə əmin-amanlıq çələnglərini səpər, qız-gəlinlər bulaq suyu ilə doqqazlarını sulayıb süpürərlər...

Naxçıvanda İslam dini yayılanadək minlərcə məbəd və ziyarətgahlar olmuşdur. Onlardan bir qismini İsgəndər Züqərneynin əsgərləri[2] və bir qismini də Ərəb xilafətinin suvari qoşun dəstələri tərəfindən 654-cü ildə dağıdılmışdır.

Bütün Azərbaycanda olduğu kimi Ərəblər Naxçıvan diyarında İslam bayrağı altında haqsızlıqlar etmişlər. Belə ki, 705-ci ildə əmir Qasım tərəfindən Naxçıvanlı islam əsgərlərindən yüzlərcə günahsızları diri-diri qala divarlarına hördürülərək məhv etmişlər[3].

Ərəb xilafəti azğınlaşaraq Bəşərin sonuncu peyğəmbəri Məhəmməd (s.ə.s) övladlarına da, qanlı divanlar tutmuşdur. Buna misal Kərbəla tarixi hadisələrini göstərmək olar. Xilafətin haqsızlıqlarından Azərbaycana pənah gətirən peyğəmbər övladları olan səyyidlər, Naxçıvanı özlərinə ikinci yaşayış yeri seçmişlər. Səyyidlər, Azərbaycan ölkəsində toxunulmadan və hörmətlə yaşamış və haliyyədə həmin şəcərədən olan vətəndaşlar da hörmətlə yaşayırlar.

2. Quran, "Əl-Kəhf" (18) s. a, 91-98, Plutarx "Zülqərneyn", Bakı-1992.
3. S. Babayev "Qədim diyarın təbiəti" Bakı 1970. səh. 5.

IX əsrdə Naxçıvan çuxurunda İslam pərdəsi altında yerli adamlara qarşı ərəblər divanlar tutduğundan Babək Xürrəminin başçılığı ilə xalq üsyanları qalxmışdır. Xalqının azadlığı yolunda mübarizə aparan atəşpərəst Babək, ərəb işğalçılarına qarşı ədalətli savaşlar etmişdir. Bundan qorxuya düşən xilafətin qoşun başçıları hiylə işlədərək ermənilərin əli ilə Babəki tutaraq işgəncə ilə şəhid etmişlər.

X əsrdə Naxçıvan diyarında əmin-amanlıq dövrü başlayaraq xalq kütlələrinə yeni din təbliğ olunmaqla İslam hökümləri, hakim dairələri bürüyür.

Naxçıvan ölkəsi orta əsrlərdə ticarət yollarının üstündə olduğundan Yaxın Şərqdə öz məhsulları ilə şöhrət tapmaqla Qərblə, Şərqi birləşdirən "Böyük İpək yolu"nun tranzit dayaq nöqtəsinə çevrilmişdir.

Avropalı tacir və səyyahlar Azərbaycandan (Naxçıvan yolu ilə) keçməklə Çinə və Hindistana sərbəst sürətdə ayaq açırlar.

XI əsrdə Azərbaycanın çox hissəsini Səlcuq türkləri tuturlar. Naxçıvan şəhərində (Nəşəvidə) Səlcuq türk sultanı Alp Arslanın iqamətgahı tikilirş İslam dinindəki təriqətlər yarandığından sünnə təriqəti hakim yer tutmaqla şiə müsəlman təriqətində olanlara ağır vergilər qoyulur.

Naxçıvan dindarları məcburiyyət üzündən qolu bağlı[4] ibadət edərək hakim dairələrdən narazılıq edirlər.

XII əsrdə Naxçıvan diyarını Ərəblər yenidən tuturlar. Ərazilər Eldəgizlərin hakimiyyətinə çevrilərək 1136-cı ildən 1225-ci ilədək Nəşəvi paytaxt şəhəri olmuşdur. Nuh yurdunda İslam mədəniyyəti inkişaf edərək zor ilə qəbul olunmuş sünnə təriqəti ləğv olunur.

Nəşəvi şəhərində məscid, mədrəsə və dini ziyarətgahlar olan qəbr üstü sərdabələr tikilir. Çaylar üzərindən körpülər salınır, yollar abadlaşdırılır, şəhər əhalisinə hamamlar, buzxanalar, zorxanalar, mədrəsələr, kitab saxlanılan xanələr, kəhrizlər tikilərək sənətkarlıq və memarlıq işləri sürətlənərək inkişaf etdirilmişdir.

Həmin dövrlər Naxçıvanın qızıl (intibah) dövrləri kimi tarixə düşmüşdür.

4. İslam dinindəki sünnə təriqətli müsəlmanlar namaz vaxtı, əllərini qarınları üstünə qoyarlar. Həmin vərdiş İslama münafiq olanlardan qalmışdır ki, qoyunlarında gizlətdikləri taxta bütləri yerə düşməsin.

Naxçıvanda memarlıqla sənətkarlıq məktəbləri açılır. Naxçıvanlı memar Əcəmi Əbu Bəkr oğlu 1162-ci ildə Yusif ibn Küseyrin məzarı üzərində və 1186-cı ildə isə Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə Xatunun qəbri üzərində möhtəşəm məqbərələr tikmişdir. Hər iki memarlıq abidəsi bu günə kimi öz əzəmətini itirməmişdir.

Naxçıvan şəhəri şimal-qərb istiqamətində böyüyərək Naxçıvan çayından şəhərə su arxı çəkilmiş və əhalinin güzəranı yaxşılaşdırılmışdır. Şəhərin içərisindən çəkilmiş arxa suyu ilk dəfə həftənin bazar günü buraxıldığından adını Bazar çayı qoyulmuşdur. Bundan başqa həmin sudan istifadə etmək üçün şəhərin məhəllələrinə arxlar da çəkilmişdir. Şəhərdəki Şahab (Söyüdlü) su arxı ən uzun və sulu arxlardan olmuşdur. Əhali su arxları kənarında söyüd, qələmə və tut ağacları əkərək təmizliyinə diqqət edirdilər.

Bundan başqa şəhər ətrafı əkin yerlərini suvarmaq məqsədi ilə kəhrizlər də qazılmışdır. Həmin kəhrizlərin suları Naxçıvan çayının qurunt suları ilə qidalanırdılar.

Şəhərdəki kəhrizləri xeyirxah dindarlar öz vəsaitləri hesabına tikdirmişlər. Dövrümüzədək qalmış kəhrizləri Kərbəlayi Musa, Məşədi Cənəmbər xanım və başqaları qazdırmışlar.

Nuh yurdu adlanan Naxçıvan diyarı tərəqqi etdiyi bir vaxtda (XIII əsrdə) Xarəzmşahı Məhəmmədin oğlu Cəlaləddin tərəfindən işğal olunur.

1220-ci ildə Naxçıvanı monqol-tatar köçərləri olan Çingiz xanın qoşunları dağıdaraq viranə qoyurlar. Ərazidəki Azad, Gilan, Naxçıvan, Qarabağlar, Sədərək şəhərləri xarabalığa çevrilmişdir. Əhali qorxu içərisində yaşayaraq yenidən abadlıq işləri apararaq körpüləri, dəyirman və məscidləri (dini ziyarətgahları) təmir edərək bərpa edirlər.

XIV əsrin axırlarında isə Naxçıvana Orta Asiyanın hakimi Əmir Teymurun qoşunları ələ keçirirlər. Naxçıvanlılar mərdlik və cəsarətlə yadellilərə qarşı vuruşurlar. Lakin 1386-cı ildə Naxçıvan qalası təslim olaraq, əhali teymurilərin əsgərləri əlində qula çevrilirlər. Əmr Teymurun əmri ilə Naxçıvanlı sənətkarlarla qadınları zor gücü ilə at döşündə Orta Asiyaya-Səmərqəndə aparırlar. Monqol qoşunları ilə özbək teymurilər Naxçıvandakı Nuhun qəbri adlanan türbə (sərdabə) tikilişi ilə Əcəmi Əbubəkr oğlunun tikdikləri abidələrdən başqa qalan tikililəri (xüsusilə ziyarətgahları, mədrəsə və xanəgahları) dağıdaraq xərabə qoyurlar.

Naxçıvan şəhəri yaxınlığında (cənubunda) teymurilərlə Naxçıvanlılar arasında bir neçə gün qanlı döyüşlər olmuşdur. Teymurun qoşun dəstələri daşatan mancanaxlarala şəhərdəki Orta əsr Cümə məscidinin kümbəzini, ətrafdakı hasar bürclərini, Ala qapının portal qüllələrini (qoşa qülləni) dağıdaraq viran qoymuşlar.

Maraqlıdır ki, ətrafda gedən davada Nuhun qəbri (sərdabəsi) divarlarına mancanq daşları dəyməmişdir. Abidə sağ-salamat qalaraq dövrümüzədək gəlib çıxmışdır. (Bu əsil möcüzədir.)

Teymurun qoşunlarına mərdliklə sinə verən Naxçıvan əhalisi Əlincə qalasında vuruşaraq düşmənə verməmişlər. Bu cür döyüşlər Oğlan qala ilə Çalxan qalada da olmuşdur. Lakin hər iki qala gərgin döyüşlərdən düşmən əlinə keçirilərək dağılıb viranə qoymuşlar.

Teymurun oğlu Miran şah bütün Azərbaycanı viran qoyduğu halda Naxçıvanın mərd və mübariz xalqına bata bilməmiş, Əlincə qalası düz on il düşmənə təslim olmamışdır.

XV əsrdə Naxçıvan əraziləri İraqlı Ağqoyunlu və Qaraqoyunlu kürd feodal tayfalarının hakimiyyətinə vermişlər. İstər Ağqoyunlu istərsə də Qaraqoyunlu hakim dairələri Naxçıvanlılara zülümlər etmişlər. Xalq əzab-əziyyətlə yaşamış, din parçalanmış (təriqətlər yaradılmış) vergi məmurları özbaşınalıq etməklə camaatın var-yoxunu talamış və ölkə (Nuh yurdu) tənəzzülə uğramışdır.

XVI əsrdə Təbrizdə 15 yaşlı Şah İsmayil Xətai (1487-1524), (Uzun Həsənin qız nəvəsi) qohumu Əlvənd Mirzəni məğlub edərək Azərbaycanın əksər torpaqlarına hakim olur. Əsasən qılınc gücünə ərazilərdən müsəlmanlara şiə təriqətini yayan şah İsmayıl, Səfəvi hakimiyyəti dövründə (1502-1772) Naxçıvan çuxuru olan Nuh yurdunu, Azərbaycanın ayrılmaz tərkib hissəsinə daxil etmiş və ölkənin paytaxtını isə Təbrizə köçürmüşdür[5]. Həmin illərdə Naxçıvanda bütün sahələrdə inkişaf olaraq xalq əmin-amanlıqda yaşamışdır. Şəhərdə məscidlər və mədrəsələr tikilərək İslam mənəviyyatı geniş təbliğ olunmuşdur. İslam dinində olan Şiə təriqəti möhkəmlənərək 14 məsum əsasında qoyulmuşdur[6]. Bu illərdə Şah İsmayıl Xətainin başçılığı ilə Azərbaycanın sərhədləri genişləndirilmiş, şimalda Dərbənd, cənubda Bağdad, şərqdə Tusla Mərv (Xorasan), qərbdə isə Sürəməri ilə Xoy şəhərləri olmaqla müstəqillik yaradılmışdır. Azərbaycan dövləti heç bir yabançı dövlətlərdən asılı olmayaraq, özünün mədəniyyəti, dini, dili və yazı əlifbası qorunaraq saxlanılmışdır. Ölkədə fars, ərəb və yabancı dillərdə danışıb yazı yazanlara ağır vergilər tətbiq olunmuşdur.

İsmayil şah gənc olsa da elmə və sənətə böyük qiymət vermiş, haqsızlığa qarşı barışmaz olmuş və ədaləti Quran hökmləri ilə hüquqda saxlamışdır.

Bir dəfə ölkənin qərb əyalətlərindən osmanlı türkləri tərəfindən qovulan Sürəməlik hakimlərinə Quranın hökmü ilə ədalətli ölüm cəzası tətbiq etmişdir. Öz ata-baba yurdlarını atıb Təbrizə qaçan İnsanları, şəhərin qala darvazalarından asdıraraq demişdir ki, ”hər kəs öz doğma yurdunu qoyub qaçarsa xalqını məhv edər, qoruyaraq şəhid olarsa qaçqınlıq xalqımıza yad olar.”

Şah İsmayıl vilayətlərə özü seçib bəyəndiyi adamları hakim təyin edərək onları birliyə çağırmaqla düşmənlərə qarşı mübariz olmalarını istəyirdi. Lakin ayrı-ayrı şəhər hakimləri, xüsusən də Dərbənd, Gəncə, Şamaxı, Bağdad, Lənkəran və digər xanlıqlar şahı eşitməyərək bir-birləri ilə çəkişməni davam etdirirdilər.

Bütün bu kimi özbaşınalıqlardan istifadə edən qonşu Türkiyə sultanı atası Bəyazidin qatili olmuş Sultan Səlim 1554-cü ildə qəflətən hücum etməklə Azərbaycana qoşun yeridir.

5. Bundan əvvəl Azərbaycanın paytaxt şəhərləri Gəncə, Bərdə, Şamaxı və Beyləqan olmuşdur.
6. Burada Məhəmməd (s. ə. s) peyqəmbərin nəslindən olan 12 imamlar nəzərdə tutulur.

Xoy yaxınlığında Çaldıran düzündə gedən müharibədə Şah İsmayılın qoşun dəstələri geriləməyə məcbur olurlar. Müharibədə Sultan Səlim müttəfiqləri (Avropa dövlətləri hakimləri) ilə birləşərək odlu silahlardan "kəlbçaxmaq" tüfəng və dəvə üstündə bərkidilmiş qısa lüləli topların atəşləri ilə qələbə çalırlar. Həmin müharibədə şah İsmayıl yaralansa da, oxşarı Sədərəkli Xızr Məhəmməd oğlu şahın yerinə türklər tərəfindən əsir alınır. Tezliklə Naxçıvan, Təbriz və digər şəhərlərimiz Osmanlı türk sultanının əsarətinə düşür.

Naxçıvan şəhərində məscidlərdə şiə təriqətindəki yerli müsəlmanlar təqibə məruz qalırlar.

Çox çəkmir ki, Azərbaycanın cənub əyalətlərinə Təbrizlə Naxçıvan şəhərlərinə Pars qoşunları hücum edərək Naxçıvan çuxurundan Türkləri qovub çıxarmaqla ermənilərə havadarlıq göstərirlər. Tezliklə farslar tərəfindən ərazilərimizdə erməni icmaları məskunlaşaraq qədimdən qalma Alban məbədlərini bərpa edib və özlərinə kilsə edirlər. Naxçıvan diyarı əldən-ələ keçməklə xalq çətin günlər yaşayırlar.

Nuh yurdunun yerli xalqı müstəqilliyini itirməklə ölkədə yenidən hərc-mərclik yaranır, iqdisadi mədəniyyət tənəzzülə uğrayır.

"Böyük ipək yolu" üstündə olan Naxçıvan diyarında tez-tez gedən qanlı vuruşmalar nəticəsində, Avropalı tacirlər yollarını dəyişərək uzaq dəniz səfərlərini seçirlər. Nəticədə isə, Naxçıvan və xüsusilə Azərbaycanın iqtisadi qüdrəti zəifləyir.

XVI əsrdə Naxçıvanın kəndli və sənətkarları bir sıra çətinliklərlə üzləşirlər. Yerli feodallar kəndli və sənətkarları talayaraq onlara qarşı ağır vergi tətbiq olunur, xalq talanır, yoxsullara işgəncə verilir, nahaqdan ailə başçıları tutularaq zindanlara saldırılır. Xalq bütün bu işlərdən bezərək ayrı-ayrı yerlərdə feodallara qarşı üsyanlara qalxırlar.

Azərbaycan xalqının qəhrəmanı Koroğlunun (Rövşən Alı oğlu) başçılığı ilə xalq kütlələri birləşərək feodal hakımlərinə qarşı üsyana qalxırlar. Bu çəkişmələrdən (fürsətdən) istifadə edən Rus çarının qoşun dəstələri Üçkilsəli erməni icma başçısı Katalikos Vazgenin çağırışına əsasən Qafqaza qoşun yeridirlər.

Tezliklə Nuh yurdu-Naxçıvan çuxurunda gedən Rus-İran müharibələrinin təsirindən Naxçıvanlılar yenidən çətinlikərlə üzləşməli olurlar. 1805-1813-cü illərdə baş verən bu müharbədə Gülüstan (Xan kəndi yaxınlığında kənddir) sülh müqaviləsi ilə başa çataraq Naxçıvan çökəyi İran şahlığının tabeliyində qalır.

Ölkədə hakim fars dairələri Naxçıvanlılara zülmlər verərək, töycü və müxtəlif vergiləri artırılar. Naxçıvandakı mədəni quruculuq yalnız fars qanunları ilə tənzimlənir. Dövlət dili fars dilinə çevrilir, məsçidlərdə fars dilli "seyidlər" xütbələr oxuyaraq, xalqı qorxu altına salırlar.

1826-cı ildə Rus çarının fərmanı ilə ikinci dəfə Qafqazda Rus-İran müharbəsinə başlanılır. Maraqlıdır ki, uzun illər farsların zülmündən çətinlik çəkən Naxçıvanlılar (xüsusilə Ordubad xalqı) bu müharibədə rusların tərəfini saxlamışlar. Buna görə də 1826-cı ilin 26 iyun tarixində Naxçıvanlılar Rus qoşun dəstələrini Zəngəzurun "Ərikli gədiyi" aşırımında qarşılamış və həmin gün Naxçıvan şəhəri rus əsgərlərinin əlinə asanlıqla keçmişdir. Naxçıvanda yaşayan Türkiyə və İrandan gəlmə ermənilər rus əsgərlərinə şəhərdə süfrə açaraq ərzaqla təmin etmişlər.

Rus qoşunları Arazı indiki Şaxtaxtı kəndindən keçərək cənuba doğru irəliləmişlər. Rus əsgərləri sursatlarını (top və mərmilərini) Araz çayından ağac sallar üstünə bağlayaraq asanlıqla keçirərək Xoy, Maku və Təbrizə tərəf irəliləyirlər.

1828-ci ildə Təbriz şəhəri yaxınlığındakı Tükmənçayın sahilində çadırlar qurularaq təslim olmuş iranlılar burada ikinci dəfə Rus-İran müharibəsinə son qoyulur.

Tarixi Türkmənçay sülh müqaviləsindən sonra Naxçıvan çuxuru, Azərbaycanın cənub-qərb əraziləri Araz çayı sərhəd xətti olmaqla Rus imperiyasına (çarlığına) tabe etdirilir. Bundan başqa Azərbaycanın cənub-şərq əyaləti olmuş Gilan vilayəti İran şahlığında qalmışdır. Rus imperiyasının hakim dairələri bu işdə böyük səhv etməklə Xəzər dənizini bütövlükdə əllərində saxlaya bilməmişlər...

Rus imperiyası Qafqazı tutmaqla Azərbaycan ərazilərinə Rusiyadan məcburi köçkünlər göndərirlər. Onlardan biri də Rusiyadakı (Volqa-Don çayları və Ural çayları hövzələrində məskunlaşan) mənəvi xristiyanlıq təriqətinə məxsus olan Xristiyan molokanlarıdır.

Naxçıvanda haliyyədə yaşayan rus dilli xalq-Molokanlar Zəngəzura köçürülən vətəndaşlardır. Bundan başqa Rusiyanın İrandakı səlahiyyətli səfiri olmuş Qriboyedovun şəxsi təşəbbüsü ilə İrandan yüzlərcə erməni ailəsi Naxçıvana köçürülmüşdür.

Istər molokanlar və istərsə də ermənilər Naxçıvanda yaşayaraq sənətkarlıqla məşğul olmuşlar. Naxçıvan hakimi Cəfərqulu xana Rus imperiyasının təzyiqi ilə şəhərdə xaçpərəstlərə kilsə tikilməsinə şərait yaradılmışdır.

İyirminci əsrin əvvəllərində dünya siyasi xəritəsində dəyişikliklər baş vermişdir. Əsasən bu dəyişikliklərə səbəb ərazi torpaqlarında gedən müharbələr olmuşdur. Müharibələri əsasən Avropanın kapitalist inhisarları arasında gedən ziddiyyətlər nəticəsində 1914-cü ildə Birinci Dünya Savaşı baş vermişdir.

Həmin müharibələrdə Türkiyə sultanlığı da məcburiyyət üzündən (müttəfiq kimi) iştirak etmişdir. Türk Osmanlı dövlətinin döyüşçüləri bu müharibədə ciddi müqavimətə rast gələrək itkilər vermişlər. Bütün bunlara bir neçə səbəb olmuşdur ki, onlardan biri də, Türk Osmanlı sərkərdələrinin (komandanlarının) bəziləri qeyri müsəlman millətindən olması idi. Belə komandanlardan biri də erməni general Andranik Ozanyan (1865- 1927) paşa olmuşdur.

Andranik Osmanlı dövlətinin məxfi hərbi sirlərini düşmənlərə (Ruslara) verməklə xain çıxmışdır. Buna görə də onun bu əməlinə cavab olaraq hərbi səhra məhkəməsinin qərarı ilə qulağının biri kəsilməklə rütbəsi endirilmiş və 24 saatın ərzində ölkədən qovulmuşdur[7].

Andranik Türkiyədən qovulduqdan sonra Ermənistana gələrək "Daşnaqsütyun" millətçi erməni siyasi partiyasına üzv olmuş və həmin mənfur partiyanın fəallarına çevrilmişdir. "Daşnaqsütyun" siyasi partiyası xüsusilə burja idiologiyasına xidmət göstərməklə nəinki Ermənistanda yaranmış erməni bolşevik partiyasının əleyhinə, o cümlədən də türk müsəlmanlarına qarşı qəddar cinayətlər törətmək də idi.

1917-ci ildə Rusiyada V.İ.Leninin (1870-1924) başçılığı ilə silahlı üsyan qaldırılır, Peterburqda çar hökuməti yıxılaraq bolşeviklərin əlinə keçir. Bununlada Rusiyanın siyasi ictimai dövlət quruluşunda dəyişikliklər baş verir, ayrı-ayrı yerlərdə "ağlar" və "qırmızı"lar arasında silahlı toqquşmalar olur. Bütün bu kim-kimə siyasət oyunundan məharətlə istifadə edən kapitalist Antanta bloku üzv dövlət qurumları ilə Zaqafqaziyadakı menşevik qurupları birlikdə yeni qurulan xalq hakimiyyətinin ləğvinə çalışırlar. Rusiyada qanlı toqquşmalar nəticəsində ölkədəki iqdisadi gərginliklər artır, Bakıdakı neft sənayesi fəhlələri yerli bolşeviklərin təbliğatı ilə sahibkarlara qarşı nümayişə çıxırlar.

1918-ci ildə M.Ə.Rəsulzadənin (1884-1955) başçılığı ilə Gəncədə Azərbaycan Xalq Cumhuriyyəti elan olunur. Elə həmin ilin 18 oktyabr tarixində Naxçıvan şəhərində Türkiyə Cumhuriyyətinin ilk prezidenti Mustafa Kamal Atatürkün (1881-1938) məsləhəti ilə şərq cəbhəsi komandanı Kazım Qarabəkir Paşanın iştirakı ilə Naxçıvanda Araz-Türk Respublikası yaradılmışdır.

7. 1982-ci ildə Naxçıvandakı tarixi binanın divarına (indiki YAP-ın şəhər şöbəsi yerləşir) "1918-20-ci illərdə Naxçıvan Araz (Türk) Respublikası hökümət idarəsi burada olmuşdur" sözləri yazılmış mərmər lövhənin açılışında, komsomol veteranı Qasım Tağıyevin nitqindən.

Naxçıvan Araz (Türk) Dövlətinin torpaq əraziləri 16 min kvadrat kilometr əhalisi isə bir milyona yaxın olmuşdur.

Araz-Türk Cumhuriyyətinin Milli Şura sədri vəzifəsinə Kazim Qarabəkir Paşanın məsləhəti ilə keçmiş İqdır vilayətinin valisi olmuş Mirzə Nəsrullah bəy Bəktaşi seçilmişdir. Dövlətin Baş Naziri Əmir bəy Ələkbərzadənin işçi tərkibinə beş sayda müvəkkillər şeçilmişlər. Onlar, Mirzalı bəy Bəktaşi (Asayiş müvəkkili), Xəlil bəy Türkəfəndi (Müdafiə müvəkkili), Kərbəlayi Əli Kəngərli (Torpaq-bələdiyyə müvəkkili), Cəfərağa Mirişli (Maarif-mənəviyyat müvəkkili) və Adil ağa Kəngərli (Yollar və sular müvəkkili).

1918-ci ilin 7 dekabr tarixində M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən Bakıdakı Azərbaycan parlamenti, Naxçıvandakı Araz-Türk Cumhuriyyətinə bir tərəfli mövqedə dayanmışdır. Parlamentin iclasında Naxçıvandan Paşa Əliyev nümayəndə sifəti ilə iştirak etmişdir.

1918-ci ildə ingilis-amerkan imperialistləri erməni menşevikləri ilə birləşərək Araz çayı boyunca Naxçıvan qəzasına silahlı basqınlar edirlər[8].

İrəvandan millətçi Andranikin silahlı quldur dəstəsi Azərbaycanlılar yaşayan kəndlərə basqınlar edirlər. Lakin Vedibasarlı Abbasqulu bəyin silahlı dəstəsinə zor işlədə bilmirlər[9]

1918-ci ilin yay aylarında Naxçıvan qəzası ilə ətraf kəndlərin əhalisinə ağır bəla üz verir. Bir tərəfdən Aleksandropol (indiki lelinakan) ərazisindən təcavüzkar imperialist qoşun dəstələri, digər tərəfdən də Xoy-Culfa ərazisindən erməni millətçiləri Vedi-Naxçıvan, Zəngəzur və Dərələyəz kəndlərini viran qoyaraq əhalisini də qılıncdan keçirmişlər.

Elə həmin ilin ortalarında Andranikin silahlı quldur dəstəsi İranın Culfa şəhərindən Arazı keçərək Naxçıvan torpaqlarını tapdalayaraq, Yaycı kəndini yandırmaqla əhalisini də vəhşiliklə öldürürlər.

Sonra erməni quldurları iki dəstəyə ayrılaraq “Yapon” təxəllüslü quldur başının adamları Ordubad kəndlərinə tərəf Andranikin dəstəsi isə Naxçıvan istiqamətində hərəkət etmişlər.

8. Ə. Əliyev “Biz əzablı ömür yaşadıq” Bakı-1994 səh. 54.
9. ”Sovet Ermənistanı” qəzeti, 1960-cı il № 90.3 Əlixan bəyin tapşırığı ilə göndərilən xəbərdarlığın arxasında rəssam B. Kəngərli, Andranikin şəklini tayqulaq ulağa bənzətmişdir.

Andranikin quldur dəstəsi gəlib Camaldınla Ərəzin kəndləri arasında kövşəndə dincəlirlər. Ertəsi günü hər iki kəndlərin əhalisini öldürərək Naxçıvan tərəfə hərəkət edirlər. Onlar Güznüt və Çeşməbasar ermənilərini də, özlərinə qoşaraq Nehrəm kəndini mühasirəyə alırlar.

Nehrəmlilər əvvəlcədən xəbər tutduğundan kəndin ətrafında səngərlər qazaraq könüllü müdafiə dəstəsi yaratmışlar. Üç günlük atışmalardan sonra ermənilər kəndə daxil ola bilməyərək Naxçıvan şəhərinin şimal hissəsinə gəlib düşərgə salırlar.

Andranik şəhər əhalisinə ultimatium (təslim olma tələbi) göndərir.

1918-ci ilin iyul ayında Cəfərqulu xan oğlu Kərbəlayi Əliyə (III Kalbalı xana) şəhər əhalisini səfərbərliyə çağırılmasını tapşırır.

(Həmin illərdə şəhərdəki fəaliyyət göstərən demokrat inqilabçı ziyalılar da şəhəri erməni quldurlarından qoruyaraq son nəfəslərinədək müdafiə etmişlər.)

Naxçıvan şəhərinə girən yollarda səngərlər qazılaraq könüllü dəstələrdən ibarət əli silahlıların ayıq-sayıqlılığını tapşırırlar.

Həmin vaxtlar şəhərdə yaşayan erməni vətəndaşları qapılarını bağlayaraq ailələrini götürüb erməni yaşayan kəndlərdə gizlənmişlər.

Üç gündən sonra Andranik Ozanyan şəhər əhalisinin təslim olmayaraq onu məsğərəyə qoyulmasını gördükdə[3] əmr edir ki, atışma başlansın. (Bax, “Əlixan məhəlləsi məscidi”nə)

İgid Naxçıvanlılar erməni güllərlərindən qorxmayaraq vuruşa-vuruşa onları yaxına buraxmırlar. Qanlı atışmalarda hər iki tərəfdən ölən və yaralananlar olur. Şəhərdəki Əlixan, Şahab və Qala məhəlləsinin könüllüləri igidlik göstərərək quldurların yaxın gəlmələrinə imkan vermirlər. Atışmalarda üç nəfər cavanlardan şəhid olaraq, şəhər qəbristanlığında dəfn edilmişlər. Şəhidlərdən biri də Nəcəfağa Sultanovun on səkkiz yaşlı oğlu idi.

1918-ci ilin 3 iyul tarixində Türkiyənin IX-XI suvari atrıcı alayı, Andranikin quldur dəstəsini izləyərək Şaxtaxtı körpüsündən Arazı keçib Naxçıvana gəlirlər. Onlar Duzdağın təpəliklərindən ermənilərin Naxçıvandakı şəhər ətrafı düşərgələrini top atəşinə tuturlar.

Andranik bundan qorxuya düşərək dəstəsini götürüb Sirab kəndi istiqamətində qaçırlar.

Naxçıvanlılar Kazım Qarabəkir Paşanın (1882-1948) başçılığı ilə gəlmiş Türk Azadlıq əsgərlərini gül-çiçəklə qarşılayırlar. Erməni quldurları isə həmin vaxtda Sirab kəndinin əhalisini Məscidə yığaraq diri-diri yandırmışdır. (Bax, "Sirab kəndindəki ziyarətgahlar"a.)

Daha sonra ermənilər Qahab kəndinə gələrək buradakı evləri yandıraraq əhalisini də, qılıncdan keçirirlər.

Kafirlər müqəddəs Əshabi-Kəhf dağının yanından keçərkən mağaranın içərisinə bir neçə adam göndərirlər. Onlar mağara divarlarına güllə atmaq istədikdə yer (dağ) titrəyir və zəlzələ olur[10]. Bu zaman dağın başından böyük qaya parçası sınaraq mağaraya düşməklə kafirlərin yolunu kəsmişdir.

Ermənilər durmadan yaxınlıqdakı Nəhəcir kəndinə gedirlər ki, orada dincəlsinlər. Kəndin əhalisi dağlarda əvvəlcədən gizləndiyindən quldurlar kənddəki "Cəviz ağacı" çeşməsini batırıb Qazancı kəndi istiqamətində hərəkət etmişlər. Bundan sonra isə erməni quldurları tələsik Naxçıvanı tərk edərək Zəngəzur silsiləsindən Gorusa gəlib Bakı qırmızı komissarı S.Şaumyanın (1878-1918) Andranikə göndərdiyi məxfi məktubu ilə tanış olmuşdur...

1918-ci ilin sentiyabr ayında ABŞ dövlətinin komandanı polkovnik V.Hasgelin layihəsi ilə Naxçıvanı tutmaq istəmişlər. Bununlada o, öz xəbərdarlığı ilə Ermənistan hökumətinə bildirmişdir ki, Şərur-Dərələyəz qəzasını ABŞ dövlətinin ixtiyarına keçməklə ərazidə "neytral zona" yaratmaq istəyir.

Bunulada amerkan-ingilis qoşunları ərazidəki İrəvan-Culfa dəmir yolunu və Naxçıvandakı trans Avrasiya teleqraf xəttinə nəzarəti gücləndirmək məqsədi ilə, həmin ilin 24 oktyabr ayında amerkan-ingilis silahlı alayı Naxçıvana gəlmişlər. Onlar buradakı Naxçıvan Araz (Türk) Respublikası hökumətinin Milli Şurasına təkidli bəyanat vermişlər.

Bəyənatda bildirilmişdir ki, Naxçıvandakı hökuməti tanımayaraq ərazi bütövlükdə ABŞ dövlətinin Cənubi Qafqazdakı əyaləti hesab olunur.

10. 1918-ci ilin iyul ayında Zəngəzur dağ silsiləsində 6 bal gücündə yeraltı təkan olmuşdur. (Tiflis, Qafqaz Seysimik Hadisələr Bürosunun arxivindən).

Amerkanlar Naxçıvanda (şəhərin mərkəzində) təcili sürətdə özlərinə qubernatorluq binasını (binaya səksəninci illərədək yaşlı adamlar “ağ ev”də deyərdilər) tikərək və ABŞ-ın dövlət bayrağını vurmuşlar.

1918-ci ilin oktyabr ayından Naxçıvanda ABŞ-ın general-qubernatorluğu yaradılaraq polkovnik V.Hesgelin müavini ordu mühəndisi polkovnik Edmund Dell isə komandan təyin olunmuşdur.

Lakin Naxçıvan qəzasını Azərbaycandan ayırmaq istəyən təcavüzkar Antanta dövlətləri istədiklərinə nail ola bilmirlər.

1918-ci ilin noyabr ayında qəbul olunmuş “Mudros” sülh müqaviləsinə görə Naxçıvana (Azərbaycana) göndərilmiş Türk əsgərləri geri çağrılırlar. Türklər öz hərbi sursat anbarını Naxçıvanlılara bağışlayaraq ərazini tərk edirlər. (1964-cü ilədək anbar yerində Vilayət Həmkarlar Şurasına inzibati bina tikilmişdir.)

1919-cu ilin yanvar ayında ingilis-amerkan təcavüzkarları polkovnik Doluxanyanın başçılığı ilə daşnaklar Şərur qəzasına qəflətən hücum edirlər. Bu vaxt Naxçıvana məlumat çatdıqda kömək üçün Kəlbalı xanın silahlılarını ora göndərirlər. Köməyə gedənlər özləri ilə birlikdə piyada topçu dəstəsi də aparmışlar.

Kəlbalı xanın müdafiə dəstəsi Şərur qəzasında daşnakları əzərək Sədərəkdən uzaqlaşdırırlar.

M.Ə.Rəsulzadənin Bakıda yaratdığı Azərbaycan Demokratik Respublikası 1920-ci ilin aprel ayında iki il müstəqillik qazandığından sonra süquta çatmışdır. Bütün bu işlərə əngəl törədən Bakıdakı Rusiya bolşevikləri inqilab komitəsinin və onun üzvlərinin (başda erməni S.Şaumyan olmaqla) köməkliyi olmuşdur. Bakı bolşevikləri Rusiyadan gələn XI hərbi divizyası əsgərlərini (zirehli qatarı) təntənəli şəraitdə qarşılamış və 28 aprel tarixdə müsavat hökumətinin istefasına nail olmuşlar. Bununla da, Bakı şəhəri rus və erməni bolşeviklərinin əlinə keçirmişdir.

1920-ci ilin iyul ayında general Şolkovnikovun başçılığı ilə erməni daşnakları, Ermənistanda yaşayan 500 mindən çox Azərbaycanlı əhalisini Şərur qəzasına qovmuşlar. Qaçqınların arasında Abbasqulu Şadlinskinin (1889-1926) silahlı dəstəsi də olmaqla Şərur camaatı ilə birlikdə Şaxtaxtı kəndinə gəlirlər. Abbasqulu bəyin silahlı dəstəsi Şaxtaxtı kəndindən Arazı keçərək Makuya gedirlər.

Bir tərəfdən Rusların “qırmızı əsgərləri”,digər tərəfdən də erməni daşnaklarının quldur dəstələri Azərbaycan xalqına zülmlər vermişlər. Vəziyyətin belə mürəkkəb və çeşməçeşlı olmasından dinc əhali çətinliklərlə üzləşməli olur.

Qarabağda “qırmızı” rus əsgərləri Şura hökumətinin qurulmasını elan etdikdən sonra Gorus-Naxçıvan yolu ilə gəlib Şahbuza daxil olurlar. Şahbuzda “qırmızı” rus suvariləri ehtiramla qarşılanıb, bolşeviklərin yolçuluğu ilə tez bir zamanda Naxçıvana gəlib çıxırlar.

1920-ci ilin 28 iyul tarixində Naxçıvandakı Sosial Demokratlar Ə.Rüstəmov, M.Bəktaşi, G.Əsgərov və başqa nümayəndələrin köməkliyi ilə Rus “azadlıq qırmızı əsgərləri” gül-çiçəklə qarşılanıb və ərazidə Xalq Şura hökumətini elan etmişlər. Şəhərin Qala məhəlləsi meydanında keçirilən toplantıya Naxçıvan xanını da, dəvət etmişlər. Lakin Cəfərqulu xan Naxçıvaniski (1881-1939) rusların dəvətini qəbul etməyərək evində oturub toplantiya gəlmir. Ertəsi günü xan, şəhərdəki nüfuzlu adamlarla vidalaşaraq axırıncı sözlərində belə demişdir:-“Məni halal edin! Sizləri Allaha tapşırıram. Daha yorulmuşam qeyrətlə Vətəndən muğayat olun!”

Xan əvvəlcədən ailəsini Şaxtaxtı kəndinə göndərməklə həmişəlik olaraq Naxçıvanı tərk etməli olmuşdur. O, ailəsi ilə birlikdə Maku şəhərində son ömrünü başa vurmuşdur.

Cəfərqulu xan Naxçıvandan getməmişdən öncə, oğulluğu III Kərbəlayi Əlini (Kalbalı xanı) (1898-1934), Təbriz şəhərinə, Şeyx Məhəmməd Xiyabaninin (1880-1920) yanına göndərmişdir. Təəssüf ki Təbrizdə Xalq ordusunun hərbi müşaviri işləyən Kalbalı xanı 1934-cü ildə ermənilərin əli ilə (İran şahının göstərişi ilə) qətlə yetirmişlər.

Naxçıvanda fövqəladə komissar B. Q. Vəlibəyovun (1894-1938) hərbi rəis Studnevin başçılığı ilə Diyar inqilab Komitəsi yaradılır. İrana qaçmış mühacirlər Naxçıvandakı əmin-amanlığı görərək geri qayıdırlar.

1920-ci ilin sentyabr ayında Naxçıvandakı Araz-Türk Respublikası ləğv olunur.

Naxçıvanda yeni yaradılmış Diyar Şura hökuməti bütün hakimiyyəti sovetlərə verərək ərazidə 12 dairə ilə 3 uyezd inzibati sahələrə bölünür. Tezliklə Naxçıvandakı sahibkarların mülkləri ilə sənaye müəssisələri milliləşdirilərək əhalinin ixtiyarına verilir.

Yerli hökumətin qərarı ilə İrana keçmiş Abbasqulu bəy Şadlinskinin silahlı dəstəsini Naxçıvana dəvət edirlər. Mütəşəkkil sürətdə dəstə Culfa körpüsündən keçərək Naxçıvana gəlirlər. Silahlı dəstəni səmimi qarşılayan hökumət rəhbərləri, onlara "Qırmızı tabor" adını vermişdir.

1920-ci ilin son rübbündə erməni daşnakları Zəngəzur əyalətində yenidən nahaq qanlar tökməyə başlayırlar.

1920-ci ilin oktyabr ayının axırlarında "Qırmızı tabor"a tapşırılır ki, Əznəbürt-Qarabağlar səmtində hərəkətə keçərək, Bağırsaqdərə-Sədərək kəndi arasındakı mövqeləri tutsunlar. Daha sonra isə erməni daşnaklarını qovaraq öz dəstələrini aparıb Arazdəyən-Çanaxçı tərəfindəki dəstələrimizlə birləşdirsinlər.

Noyabr ayında həmin əməliyyatlar uğurla başa çatdığından, daşnaklardan 1200 nəfər muzdlu quldurlar əsir alınmışlar. Bununla da, Şərur qəzası bütünlükdə erməni quldurlarından azad olmuşdur.

1921-ci ilin 13 fevralında Daşnaksütyun siyasi partiyası üzvləri İrəvanda yaradılmış bolşevik şura hökumətini yıxmağa cəhd göstərmişlər. Tezliklə daşnak quldurlarının silahlı dəstələri güclənərək həmin ilin yay aylarında ermənilər "Yapon" təxəllüslü quldurbaşının başçılığı ilə Zəngəzurun Karçevan-Mehri ərazilərindəki Azərbaycan kəndlərini yandırıb, əhalisini də, məhv edirlər. İrəvanda quldur dəstələrinə qarşı müqavimət göstərmiş və Ermənistan inqilab hökuməti tərəfindən Abbasqulu bəyin silahlı dəstəsinin fəalları "Qırmızı bayraq" ordeni ilə mükafatlanmışlar. Buna görə də, Abbasqulu bəyin silahlı dəstəsini Zəngəzura göndərirlər ki, orada baş qaldıran erməni quldurlarını ərazidən qovsunlar. Həmin döyüşlərdə Abbasqulu bəyin "qırmızı taboru" daşnak quldurlarını Mehri-Karçevan ərazilərindən qovub çıxarmışdır. "Qırmızı tabor"çulara Ordubad şəhərindən də könüllülər qoşulmuşlar.

Erməni daşnak quldurları Naxçıvan çuxurundakı və ətraf (Vedibasar-Zəngəzur) azərbaycanlı kəndlərindəki yaşayan dinc əhaliyə tarixdə misli görünməmiş qəddarlıqlar göstərmişlər.

Ermənilər azərbaycanlı kişiləri tutaraq kürəklərinə qaynar su tökmüş, qızdırılmış dəmirlə bədənlərinə dağ basmış, burun və qulaqları kəsilməklə əzablı işgəncələr vermişlər.

Kafirlər uşaqları süngülərə taxaraq tonqallarda yandırmış, gəlin-qızlarımızın ismətlərinə vəhşiliklə toxunmuşlar.

Erməni quldurları Araz boyu kəndlərimizə qəfildən hücum çəkərək dinc əhalinin evlərini yandıraraq talan etmiş,məscid və ziyarətgahlarımızı uçurub dağıtmış, qaçanları Araz çayına qovaraq suda boğub öldürmüşlər.

Həmin illərdə Naxçıvanda yaşamış realist rəssam Bəhruz Kəngərli (1892-1922) tərəfindən qaçqınlar boyakarlıq tablolarında tarixə düşmüşdür.

1924-cü ilin yanvarın 21-də Rus şura hökumətinin banisi V.İ.Leninə qəsd edilərək öldürülür. Dövlətin başına bakılı bolşevik gürcü İ.V.Stalin (1879-1953) gəlir. Moskvada olduğu kimi Bakıda da, görkəmli şəxsləri aradan götürürlər. Bolşevik S.Şaumyanın himayəsi ilə Bakıda və Naxçıvanda ermənilər idarə və təşkilatlara keçirilərək işbazlıqla başlarını girələyirlər. Onlar millətçi quldur Andranikin Azərbaycanlılara qarşı törətdiyi cinayətləri ört-basdır etməklə, şəhid qəbrstanlıqlarını ləğv edirlər.

“Beynəlmiləlçi” Sovet ideologiyasının qanunlarına zidd çıxan vətəndaşları müxtəlif əqidələrinə görə Sibirə və Qazaxıstanın çöllərinə sürgün olunurlar.

Naxçıvandan da, bir çox adamlar, xüsusilə dindarlar Sibirə sürgün edilərək məhv olmuşlar.

Naxçıvanlı şair, dramaturq Hüseyn Cavid (1882-1941) də həmin qurbanlardan biri olaraq əvvəlcə Maqadana sonra isə İrkutskə sürgün edilərək məhv olunmuşdur. (Bax, “H. Cavid məqbərəsi”nə.) Sovet dövlətinin daxili siyasəti ilə Azərbaycanın torpaq ərazilərinin bir çox hissələri ermənilərə, gürcülərə və Dağıstan ləzgilərinə paylaşdırılır. Belə ki, Zəngəzurla Göyçə mahalları Ermənistana, indiki Marneuli-Qardabani-Mirzəani rayon əraziləri Gürcüstana və Qasim kənd-Dərbənd əraziləri isə Dağıstana birləşdirilmişdir.

Həmin siyasət tezliklə Naxçıvan ərazi torpaqlarında da aparılmışdır...

1924-cü ilin 9 Fevral tarixindən Naxçıvanda Muxtar Sovet Sosialist Respublikası yaradılaraq Azərbaycanın tərkibində qalmışdır. Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Mirzalıbəy Bəktaşi olmuşdur. Qarabağda ermənilər yaşadıqlarından oranı da Muxtar Vilayət kimi Azərbaycanın xəritəsində saxlamışlar.

1840-cı ilin 10 aprel (1841-ci ilin 1 yanvar tarixindən qüvvəyə minmişdir) tarixində Naxçıvan qəzası, Azərbaycanın tərkibində qalmaqla sahəsi 4378 km^2 əhalisi isə 86 min 878 nəfər (1896-cı ilin statistik məlumatı əsasında) olmuşdur.

Ərazinin (qəzanın) Naxçıvan, Ordubad, Dərələyəz, Culfa, Şahbuz və başqa iri məntəqələri olmuşdur.

1849-cu ilin 9 iyun tarixindən Naxçıvan qəzası İrəvan quberniyası ilə birləşsə də müstəqilliyində qalmışdır. Çar Rusiyasının Qafqaza (o cümlədən də Cənubi Qafaqaza) strateji mövqedən yanaşaraq ərazidəki mühüm şəhərlər arası poçt-teleqraf yollarına diqqəti artırmışdır.

1850-60-cı illərdə Yevlaxdan Şuşaya, ordan da Gorus-Naxçıvan yolları çəkilmişdir.

1864-cü ildə çar Rusiyasının icazəsi ilə İngilislər-Britaniya krallığı, Tiflisdən Naxçıvana (Trans Avro Asiya London-Kəraçi (Bombey) teleqraf-poçt rabitə xəttini çəkmişlər. Naxçıvan şəhərində poçt-teleqraf məntəqəsi binası, səksəninci illərədək (indiki 12№-li məktəbin binası yerində) qalmaqda idi.

Çar Rusiyası hakim dairələri Qafqazda rus dilini bilən yerli əhalini maarifləndirmək üçün bir çox məktəblər açdırmışdır.

1840-cı ildə Naxçıvanda ilk qəza məktəbi açılaraq 1879-cu ildən isə üç sinifli şəhər məktəbi adlandırılmışdır. Həmin illərdə Naxçıvanda maariflə yanaşı səhiyyə-sağlamlıq işlərinə də diqqət yetirilmişdir.

1892-ci ildə Cəhri kəndində 4 çarpayılıq azarxana açılaraq, 1905-ci ildə isə Naxçıvan şəhərində 14 çarpayılıq xəstəxana yaradılmışdır. Şəhərdə həmçinin iki əczaxana ilə bir feldşer-baytarlıq məntəqəsi də olmuşdur.

1923-cü ildə (27 fevral tarixində) Naxçıvan qəzası Naxçıvan Muxtar Diyarının tərkibinə keçirilmişdir.

Keçmiş sahələr bütövlükdə 1924-cü ilin 9 fevral tarixli qərarı ilə Naxçıvan MSSR-nin tərkibinə verilmişdir[11].

1920-ci ildə qanunsuz olaraq Zəngəzurun 44 km enində Araz çayına doğru zolaq torpaq sahələri Ermənistana bağışlanmışdır. Beləliklə də, Naxçıvan əraziləri Azərbaycan SSR-nin torpaq ərazilərindən ayrı düşmüşdür.

Bütün bunlar düşünülərək həyata keçirilmiş ermənipərəst rəhbərlərimizin imzası ilə təsdiq olunmuşdur.

1924-cü ilədək Naxçıvan MSSR-in inzibati bölgüsündə Muxtar Respublikanın tərkibində 3 qəza ilə 12 dairə olmuşdur.

11. Q. Mədətov "Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Nax. MSSR-in təşkili" Bakı-1958.

1925-ci ildə isə qəzalar ləğv olunaraq, dairələrin sayı 8-ə endirilmişdir. Həmin dairələr Baş Noraşen, Qıvraq, Tumbul, Əbrəqunus, Nərimanov, Culfa, Parağa və Ordubad olmuşlar.

Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Bahadur Vəlibəyov olmuşdur.

1930-cu ildə Naxçıvan MSSR-in tərkibində Şahbuz, Şərur, Naxçıvan, Culfa, Əbrəqunis və Ordubad inzibati rayon ərazilərinə bölünmüşdür.

Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Həmid Mahmudov olmuşdur.

1948-ci ildən Əbrəqunis rayonu ləğv edilərək ərazilər Culfa rayonu ilə birləşdirilmişdir.

Bütöv Azərbaycan torpaqlarının bir hissəsi Naxçıvandan alınaraq Ermənistana verildikdən sonra 1920-ci ilin 2 dekabr tarixli Gümrü və 1921-ci ilin 16 mart tarixli Moskva müqavilələri imzalanmışdır.

Müqəvilənin şərtlərinə görə Azərbaycan torpaqlarından ayrı düşmüş Naxçıvan diyarına hər hansı bir təcavüz baş verdikdə Türkiyə dövləti əraziyə qoşun yeritməklə yardım edəcəkdir. Müqaviləyə Türkiyə, Rusiya Federasiyası, Ermənistan, Gürcüstan və Azərbaycan nümayəndə başçıları imza atmışlar. Həmin tarixdən də Azərbaycanın Türkiyədəki səfiri Naxçıvanlı İ.M.Əbilov (1881-1923) Mustafa Kamal Atatürklə görüşmüşdür.

1929-cu ilin 18 fevral tarixindən başlayaraq Zaqafqaziya M.İ.K-in qərarı ilə Naxçıvan MSSR-in 10 kəndini torpaq sahələri ilə birlikdə Ermənistana birləşdirmişlər. Bu isə 1921-ci ilin Qars və Moskva müqvilərləri şərtlərinin kobudluqla pozulması deməkdir[12]. Həmin kəndlər aşağıdakılar olmuşdur; 1) Axəc-inzibati ərazi Şahbuz nahiyyəsindən, 2) Aldərə-inzibati ərazisi, Ordubad rayonundakı (Levhar, Astazor, Nüvədi və s. kəndlərlə birlikdə), 3) Almalı-inzibati ərazisi Şahbuz nahiyyəsindən, 4) Horadiz-inzibati ərazisi Şərur qəzasından, 5) Xaçık-inzibati ərazisi Şərur qəzasından, 6) İtqıran-inzibati ərazisi Naxçıvan qəzasından, 7) Kilit-inzibati ərazisi Ordubad qəzasından, 8) Qərçivan-inzibati ərazisi Ordubad qəzasından, 9) Qurdqulağı-inzibati ərazisi Şərur qəzasından və 10) Sultanbəy-inzibati ərazisi Naxçıvan qəzasından.

1932-34-cü illərdə Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Həmid Sultanov olmuşdur.

12. ”Naxçıvan Ensiklopediyası” Bakı-2002.

Azərbaycanda olduğu kimi Naxçıvanda da əhali ateist təbliğatı ilə yaşayırdı. Dindarlar təqib olunaraq sürgünə göndərilir, ziyarətgahlara getmək isə yasaq olunurdu. Məscidlər kütləvi sürətdə bağlanaraq ambarlara çevrilirdi. Məktəblərdə dini təlimlər qadağan edilməklə yeni təlim əsasında uşaqlara oktyabr inqilabından danışılaraq pioner və komsomol tərbiyəsi verilirdi. Savadsızlığa qarşı mübarizə aparılaraq axşam, gündüz məktəblərində, o cümlədən də qadınlar klublarında oxuyub-yazmaq öyrədilirdi.

Yeddi illik natamam gündüz məktəblərini bitirmiş məzunlara ibtidai məktəblərdə müəllimlik etmələrinə şərait yaradılmışdır.

Naxçıvanda hələ keçən əsrin (XIX əsrin) axırlarından fəaliyyət göstərən teatr tamaşaları göstərilərək əhali arasında din və xurafət işləri məsxərəyə çevrilmişdir.

Naxçıvan teatrı səhnəsində M.F.Axundovun, C.Məmmədquluzadənin, N.Nərimanovun dram əsərləri tamaşaya qoyulurdu. Naxçıvan teatrında İbrahim Həmzəyev, Əyyub Məmmədov, İsa Musayev, Səməd Mövləvi, Firuzə Əlixanova, Zəroş Həmzəyeva və başqa aktyorlar meydana çıxmışdır.

1934-36-cı illərdə Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Hüseyn Rəhmanov olmuşdur.

Azərbaycan hökuməti şərq qadınlarına “azadlıq verməklə” çadra örtməyi qadağan etmişdir. Şəhərdə fəaliyyət göstərən qadınlar klubunda qız-gəlinlərə sinifsiz cəmiyyətdə kişi ilə qadının bərabər hüquqları təbliğ olunurdu.

Naxçıvanda qızlar oğlanlarla bir məktəbdə təhsil alaraq müxtəlif sosial peşələrə yiyələnirdilər.

Xalq kütləsini istər kənd və istərsə də şəhərdə məcburi işlərə cəlb edərək işsizliklə mübarizə profilatika tədbirlərini həyata keçirirdilər.

Kəndlərdə ümumi kolxoz təsərrüfatları ilə bərabər dövlət təsərrüfatları olan sovxozlar yaradılmışdır. Şəhər və qəsəbə mərkəzlərində fabrik, zavod və peşə-sənət kombinatları açılmışdır. Ölkədə asayiş işləri də güclənərək xalq nəzarəti ilə drujina fəalları yaradılmışdır. Çar rusiyasındakı, jandarma və qaradavoylar, sovet milisi adı ilə əvəz olunmuşlar.

1937-41-ci illərdə Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Kazım İsmayılov olmuşdur.

Naxçıvan şəhərində müəllim institutu, MTS (maşın-traktor stansiyası), kənd təsərrüfatı, tibb, sənət və peşə məktəbləri, axşam və gündüz ümum təhsil məktəbləri də açılmışdır.

Ölkədə Stalinin sözləri ilə şüarlar və plakatlarla ideoloji təbliğat işləri, bolşevik rəhbərlər tərəfindən gücləndirilmişdir. İnsanlar qorxu altında yaşayaraq sabaha ümüdsüzlüklə baxırdılar. Stalinin şəxsiyyətinə pərəstiş təbliğatı gücləndirildiyindən Leninin adı çox nadir hallarda yada salınırdı.

Moskvada çağırılan (keçirilən) Qurutltaylarda beş illik dövlət plan və tapşırıqlarını yerinə yetirilməsinə qərarlar qəbul olunurdu. Mərkəzi Komitənin Siyasi bürosu üzvləri yalnız yoldaş Stalinin qəaralarına alqış deməklə müxtəlif geridə qalan sahələrə diqqət artırılırdı. Ölkədə kənd təsərrüfatını inkişaf etdirmək üçün tez-tez Moskvada qabaqcılların təcrübəsi təbliğ edilərək, sərgilərdə nümayişə qoyulurdu. Maşınqayırma və ağır sənayeni, o cümlədən də yüngül və yeyinti sənayesini inkişaf etdirmək üçün ölkədə Lenin tərəfindən təməli qoyulmuş elektrikləşdirmə siyasəti ön plana çəkilmişdir. Bütün bu illər ərzində Avropanın inkişaf etmiş dövlətlərindən olan Almaniya hərbi sənayesini gücləndirərək ikinci dünya mühaibəsinə hazırlaşırdı.

1941-45-ci illərdə ikinci dünya müharibəsində hitlerçi faşist Almaniyasına qarşı Sovet ölkəsinin vətəndaşları kimi Naxçıvanlılar da mərdliklə vuruşmuş, düşmənə nifrət hissi yaradaraq ön və arxa cəbhələrdə fədakarlıq etmişlər.

1941-46-cı illərdə Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Hüseyn Nəcəfov olmuşdur.

Azərbaycan KP(b)P-ın birinci katibi M. C. Bağırovun (1906-1956) göstərişi ilə adət və ənənələrə icazə verilmişdir. Məscidlərdə möminlər ibadət edərkən ölkəyə əmin amanlıq, döyüşçülərə mətanət və səbr, düşmənə isə nifrət duaları edirdilər. Xalqımız gərgin müharibədə qələbə qazanaraq sonrakı illərdə dağılmış sənaye mərkəzləri bərpa olunur.

Sovet rəhbərləri müharibənin qələbəsində neft sənayemizin inkişafına görə sonrakı illərdə bir sıra şəhərlərə fəxri adlar verilsə də Bakı şəhəri unudulmuşdur.

1946-50-ci illərdə Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi Yusif Yusifov olmuşdur.

Ikinci dünya müharibəsindən sonra Naxçıvanlılar sosializm sisteminin inkişafı üçün qəbul etdikləri plan və tapşırıqları vaxtında ödəyirdilər. 1949-cu ilin 28 may günündə Naxçıvan diyarında Muxtar Respublikanın yaradılmasının 25-ci ildönümünü bayram etmişlər. Bütün bu illərdə Naxçıvan diyarında yüzlərcən məktəblər açılmış şəhərdə müəllimlər institutu, pedaqoji və musiqi məktəbləri, kənd təsərrüfatı və tibb texnikumları ilə bərabər Azərbaycan Elmlər Akademiyasının bazası yaradılmışdır.

1950-51-ci illərdə Vilayət (bolşeviklər) Komitəsində Allahverdi İsayev və 1951-55-ci illərdə isə İsmayıl Əsgərov birinci katib vəzifəsində işləmişlər.

1953-cü ildə Sovet dövlətinin başçısı İ. Stalin vəfat etdikdən sonra yüksək vəzifəyə N.S.Xuruşov (1894-1971) seçilmişdir.

Sov.İKP-ın iyirminci Qurultayında Stalinin şəxsiyyətinə pərəstiş siyasəti kəskin sürətdə pislənmişdir. Həmin Ali dövlət iclasında komunist partiyasındakı “bolşevik” sözləri silinərək nizamnamədə dəyişiklik edilmişdir.

1955-60-cı illərdə Naxçıvan Vilayət Komitəsinin birinci katibi Xurşud Məmmədov olmuşdur.

Qurultayın qərarı ilə Stalin dövrünün məhkumları bağışlanaraq əhv olunmuşlar.

1961-ci ildən pullar dəyişdirilərək əvvəlki 10 qəpik 1 qəpik yerində olur. Təzə çıxan 1,3,5,10,15,20,50 və 1 manat qəpiklərlə 1,3,5,10,25,50 və 100 manat məbləğində kağız pul vahidləri tədavülə buraxılır. Şəhadətnamə, attestat və diplomlar yeni formada milli və rus dillərində buraxılır, partiya üzvlük biletləri ilə vətəndaşlıq aktı sənədlərində bəzi dəyişikliklər edilir.

1960-70-ci illərdə Azərb.KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi Hacıağa İbrahimov olmuşdur.

1964-cü ildə Naxçıvan zəhmətkeşləri Muxtar respublikanın 40 illiyini bayram etmişlər. Həmin illərdə burada Dövlət radio və televiziya verlişləri Komitəsi yaradılaraq Naxçıvanlılar evlərində mavi ekranlardan televiziya proqramlarını seyr etmişlər. Araz çayı üzərində (İranla SSRİ dövlətləri) bənd çəkərək Naxçıvan SES-nin tikintisinə başlanmışdır.

Naxçıvan şəhərində H.Cavid adına geniş ekranlı müasir qurğu və avadanlıqlarla təchiz olunmuş kino teatr və C.Məmmədquluzadə adına Musiqili Dram Teatr binaları zəhmətkeşlərə mədəni xidmət göstərmişdir.

Naxçıvan zəhmətkeşləri xalq təsərrüfatının bütün sahələrində əzmkarlıq göstərərək yüksək nəaliyyətlər qazanmışlar. Elə buna görə də qabaqcıl əmək adamlarından Narıngül Quliyeva, Bahar Talıbova, Mirhəmzə Eminov, Lətifə Babayeva, Ağcoş Əliyeva, Raziyyə Rüstəmova və başqaları kənd təsərrüfatı sahəsində fəxri adlar almışlar.

Muxtar Respublikanı qazandığı nəaliyyətlərə görə SSRİ hökuməti, ”Lenin” və “Oktyabr bayrağı” ordenləri ilə təltif etmişlər.

1964-cü ilin sentyabr ayında Sovet dövlətinin başçısı işindəki ciddi nöqsanlarına görə vəzifəsindən çıxarılmış və onun yerinə L.İ.Brejnevi (1906-1982) seçmişlər.

1970-75-ci illərdə Az. KP Nax. Vil. Kom.-nin birinci katibi Aslan Hüseynov olmuşdur.

1974-cü ilin oktyabr ayında Muxtar Respublika zəhmətkeşləri Naxçıvan MSSR-in 50 illiyini bayram etmişlər. Moskva hökuməti bu münasibətlə Naxçıvanı 3 oktyabr 1974-cü il tarixli fərmanı ilə təbrik edərək qazandığı naliyyətlərinə görə “Oktyabr ordeni” (ikinci dəfə) ilə təltif etmişdir. Həmin bayrama Bakıdan gələn Azərbaycan KPMK-nın birinci katibi H.Ə.Əliyev yoldaş Naxçıvanlıları təbrik etmiş və şəhərdəki Mərkəzi meydanda V.İ.Leninin qranitdən yonulmuş 7 metrlik abidəsini açmışdır (Abidənin müəllifləri heykəltaraş İ.Zeynalov və arxitekturları H.Ələsgərovla Ə.Hüseynov olmuşlar.)

Əvvəllər filial kimi fəaliyyət göstərən Naxçıvan pedoqoji institutu müstəqil ali təhsil ocağı olmuşdur. Naxçıvan zəhmətkeşlərinin xidmətinə yeni təyyarə limanı, rabitə evi, mehmanxana, sərgi pavilyonu və digər sənaye sahələri də tikilərək istifadəyə verilmişdir.

Naxçıvan zəhmətkeşləri həmin illərdə artıq yerli televiziyadan başqa Bakı və Moskva televiziya verlişlərinin kanallarını da seyr edirdilər.

1975-85-ci illərdə Az. KP. Naxçıvan Vilayət Komitəsinin birinci katibi Kamran Rəhimov olmuşdur.

1981-ci ilin 26 dekabr tarixində Naxçıvanda çıxan "Şərq qapısı" vilayət qazetinin (həmin illərdə "Sovet Naxçıvanı" adı ilə azərbaycan və rus dillərində qəzetlər nəşr olunurdu) 60 illiyi qeyd olunmuşdur. Bu münasibətlə qəzetin redaksiya ilə çap mətbəəsi iki rəngdə çap edən Rotasiya maşınları ilə təchiz olunaraq təzə tikilmiş binalara köçmüşlər.

Uzun illər qəzet mətbəəsində səmərəli işinə görə çapçı Firdovsi Abdulla oğlu Bağırov Azərbaycanın Əməkdar poliqrafçısı yüksək adı verilmişdir. Həmin illərdə Naxçıvan Muxtar Respublikasında artıq beş adda (Zəfər, Yeni Ordubad, İşıqlı yol, Əmək bayrağı və Yüksəliş) qəzetlər çap olunurdu.

Muxtar Respublikanın bayrağında üç dövlət ordeni olaraq Naxçıvanlılar beş illik dövlət planlarını yerinə yetirdiklərindən dəfələrlə Ümumittifaq Sosializm yarışlarında qalib çıxaraq Keçici Qırmızı Bayraqla mükafatlanmışlar.

Muxtar Respublikanın zəhmətkeşləri siyasi, iqdisadi və sosial mədəni quruculuq işlərində naliyyətlər qazanmışlar. Belə ki, şəhər və rayon mərkəzləri genişlənmiş, yeni yaşayış binaları tikilərək təzə mikrorayon sahələri əmələ gəlmişdir. Muxtar Respublikanın xəritəsində Şərur qəsəbəsi şəhər statusunu almış və təzə Babək qəsəbəsi (rayon mərkəzi) yaradılmışdır.

1982-ci ilin 10 noyabr tarixində Sovet dövlətinin başçısı L.İ.Brejnev vəfat edərək onun yerinə Y.V.Andropov (1914-1984) seçilmişdir. Brejnevin ölüm xəbəri ilə əlaqədar olaraq bütün Sovet xalqları kədərlənərək matəm saxlamışlar.

1984-cü ilin yazında müəmmalı şəkildə Y.V.Andropov vəfat edərək onun yerinə əvvəllər müəllim olmuş K.O.Çernenko (1916-1985) seçilmişdir.

Çernenko vəzifəyə gəlməklə ölkədə xalq maarifini inkişaf etdirmişdir. O, maarif sahəsində islahatlar apararaq (Sov.İKP-ın XXIV qurultayında) müəllim əməyinə yüksək qiymət vermişdir.

Bütün bu illərdə Muxtar Respublikada 6.500 nəfərdən artıq müəllim çalışmış, onların 170 nəfəri əməkdar müəllim fəxri ad almış, 52 Baş və 25 nəfər isə Metodist müəllim adlarına layiq görülmüşlər. Yüzlərlə müəllimə "SSRİ-nin əlaçı maarif işçisi" döş nişanları verilmişdir. Müəllimlərdən bir nəfəri SSRİ, bir nəfəri Azərbaycan və iki nəfəri də Naxçıvan MSSR-ə deputat seçilmişdir. Didivar kəndindəki orta məktəbin müəllimi İ.Şükürov SSRİ-nin Xalq Müəllimi fəxri adı verilmişdir.

1984-cü ilin 17 noyabr tarixində Naxçıvan xalqı Muxtar Respublikanın yaradılmasının 60 illiyi yubleyi şənliklərini keçirmişlər.

Həmin ildə Muxtar Respublikanın kənd əməkçiləri dövlətə plandan artıq 147 min ton (210%) üzüm, 7,6 min ton (174%) meyvə, 7,3 min ton (118%) tərəvəz və 1,702 ton (122%) bostan bitkiləri yetişdirmişlər.

Azərbaycanda olduğu kimi Naxçıvanda da zəhmətkeşlər ildə bir dəfə yeni yaranmış sosial bayramlarından olan "Məhsul bayramı"nı keçirirlər. Ənənəvi "1 may" və "Oktyabr bayramı" ilə bərabər payız aylarında istehsal sahələri öz mallarının satış yarmarkalarını da təşkil edirdilər. Dövlət tərəfindən əməkdə fərqlənən kollektivlərə o cümlədən də istehsalat qabaqcıllarına həvəsləndirici minik avtomobilləri hədiyyə verilirdi.

Həmin illərdə Naxçıvan şəhərində bir çox tikinti abadlıq işləri aparılmış, 13 mərtəbəli "Təbriz" mehmanxanası, Respublika Mədəniyyət Sarayı binaları tikilmiş, Uşaq istirahət və mədəniyyət parkı salınmışdır. (Adları çəkilənlər 2002-07-ci illərdə bərpa olunmuşlar.)

Bundan başqa mədəniyyət nazirliyinin Tarixi abidələr üzrə Elmi-Bərpa istehsalat idarəsinin inşaatçıları Muxtar Respublikada olan bir çox tarixi və memarlıq abidələrini də bərpa etmişlər.

1985-87-ci illərdə Az. KP. Naxçıvan Vilayət Komitəsinin birinci katibi Nurəddin Mustafayev olmuşdur.

1985-ci ildə Sovetlər ölkəsinə yeni bir rəhbər gəlmişdir. Krasnodor vilayətinin erməni pərəst mənşəli M. Qorbaçov (1931-....) adi kəndli olaraq gənclik illərində kombayınçı peşəsi ilə işgüzarlıq göstərərək Kommunist Partiyası sıralarına keçmiş Leninçi prinsiplərə sədaqətlə yanaşmışdır. O, əvvəllər komsomol işçisi olmuş və iqdisadiyyat üzrə alimlik dərəcəsinə qalxmışdır.

Maraqlıdır ki, Sovet dövlətinə rəhbər vəzifəyə keçən gündən SSRİ hökumətinin iqdisadiyyatı tənəzzülə uğramışdır. Mütamadi olaraq xalq qarşısında boş boğazlıq etməklə ölkənin nəinki iqtisadiyyatını hətta müdafiə qüdrətinə də təsir göstərməklə insanları sanki "ovsunlamışdır".

O, Sovet xalqının aşkarlıq və demokratiya adı ilə yenidənqurma şüarları ilə aldadaraq əməli işlər görməyərək boşboğazlıqla fəxr edirdi. Fürsətdən istifadə edən Qərb kapitalist ölkə başçıları Qarbaçovu tez-tez ölkələrinə "qonaq çağıraraq" gizlində antisovet təbliğatını gücləndirirdilər.

1987-88-ci illərdə Az. KP. Nax. Vilayət Komitəsinin birinci katibi Heydər İsayev olmuşdur.

Həmin illərdə avropa ölkələrinə (kapitalist dövlətlərinə) Sovet ittifaqından turist marşrutları açılaraq gedənlərə "yaşıl işıq" yandırılırdı. Xarici dövlətlərin siyasi təşkilatları xaricdə olan Sovet vətəndaşlarının muzdala ələ keçirməklə onlara Sovet ittifaqının-sosializmi əleyhinə təbliğat aparmalarını tövsiyə etmişlər. Həmin illərdə ölkə daxilində vətəndaşların əllərində gizli və ya aşkar sürətdə ABŞ dövlətinə məxsus dollarlar gəncləri və bürokrat rəhbər işçiləri girdaba salmışdır.

Ölkədə gənclərin tərbiyəsinə mənfi təsir göstərən əxlaqsız "boz" video filmlər nümayiş olunaraq "kapitalist mədəniyyəti" təbliğ edilirdi.

Bundan başqa təxribat işləri gücləndirilərək mühüm və hərbi strateji obyektlər partladılırdı.

Həmin illərdə Ukrayna ilə Belarusiyaya ən çox zərər dəyərək Çernobl Atom Elektrik Stansiyası partladılmışdır. Avropa ölkələrindəki müdafiə məqsədli Sovet qoşun hissələri ləğv olundu, işsizlik artaraq vətəndaşların arasında anarxiya meydana gəldi, kütləvi şəkildə milli hərəkatlar güclənərək beynəlmiləlçilik hüquqları pozuldu.

"Xalqın" və millətin tərəflərini saxlayan şovinist liderlər meydana gəlmişdir. Dövlətin güc nazirlikləri isə nədənsə bu işlərin qarşısını almağa tələsmirdilər. Ən dəhişətlisi ölkə daxilindəki milli münaqişələrin güclənməsi nəticəsində xalqın sovet dövləti rəhbərlərindən narazı olmağa səbəb yaradırdı. Belə milli münaqişələr Orta Asiyadakı Mesxeti türklərinə divan tutulması, Krım vilayətində, Şimal Qafqazda (Çeçenistanda), Gürcüstanda, Baltikyanı ölkələrdə və nəhayət Ermənistanda (ermənilər tərəfindən Azərbaycanlıların yurd yerlərindən qovulması) olmuşdur.

1988-90-cı illərdə Az. KP. Nax. Vilayət Komitəsinin birinci katibi Afiyəddin Cəlilov olmuşdur.

1988-ci ildə avropanın erməni pərəst muzdlularının əli ilə Sumqayıt şəhərində yaşayan ermənilərdən bir neçəsi öldürülmüşdür. Bütün bu işlərdə Ölkə başçısı və onun kütləvi informasiya vasitələri Azəri türklərini günahkar bilmişlər.

Həmin ilin ikinci yarısında millətçi ermənilər Yerevanda Azəri türklərinə qarşı kütləvi mitinqlər keçirməyə başladılar. Onlar "Böyük Ermənistan" təbliğatı apararaq xaricdəki havadarlarına arxalanırdılar.

Səksən doqquzuncu ildə Naxçıvana Ermənistandan ilk qaçqınlar gəlməyə başlamışdır. Dövlət bütün bu haqsızlıqlara göz yumaraq biganəlik göstərirdi. Azərbaycan xalqı narahat günlər keçirirdilər.

1990-91-ci illərdə Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsinin birinci katibi Əkbər Əliyev olmuşdur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Nuh yurdu-Naxçıvanın torpaq əraziləri erməni millətçilərinin böhtanlarına məruz qalmışdır.

Belə ki, 70 ildən sonra millətçi "Daşnaksütyun" siyasi partiyası "dirilmişdir."

Sovet dövlətinin başçısı M.Qorbaçovun Fransaya səfərindən sonra mənfur millətçi partiya üzvləri Moskvaya-Sovetlər ölkəsinə də gəlib çatmış və Kremldə təlimatlandırılaraq Ermənistana (Qafqaza) göndərmişlər.

1987-ci ildə ermənilər Ermənistan ərazilərindən Azəri türklərini atababa yurdlarından çıxararaq qovmuşlar. Nəticədə Bakıda, İrəvanda, Sumqayıtda, Xan kəndində (Stepanakert) və digər şəhərlərdə milli toqquşmalar yaranır. Artıq bu zaman Sovet dövlətinin bir çox regionlarında da milli toqquşmalar baş vermişdir. Bakıda olduğu kimi Naxçıvanda da xalqı, milləti və torpaqları müdafiə edən "Xalq cəbhəsi" adlı ictimai təşkilatları yaradılmışdır. Həmin təşkilatlar məxfi fəaliyyət göstərərək başına üzvlər toplayırdı.

Xalq cəbhəsi siyasi təşkilatının Azərbaycanın hər yerində olduğu kimi Naxçıvan Muxtar Respublikası ərazilərində şöbə və özəkləri yaradılır. Özəklərin məsul təbliğatçıları yerlərdə təşkilat, müəssisə və hətta məktəblərdə də olaraq Sovet dövləti əleyhinə təşviqat işlərini gücləndirib camaatı partiya sıralarına cəlb etməklə küçə və meydandakı mitinqlərə sürükləyirdilər[13].

Bakıda olduğu kimi Naxçıvanda da "cəbhəçi"lərin küçə mitinqləri çoxalır, adamların ehtirasları gərilirdi. Mitinqdə danışan "natiq"lər bəzən kəskin sözləri ilə hökumət rəhbərlərini hədələyərək özlərindən çıxırdılar. "Şairlər" gecədən tələm-tələsik yazdıqları qafiyəsi süzgün şerlərini siyasətlə bəzəyirdilər...

Artıq hamı "siyasətçi" olaraq öz işini, sənətini, peşəsini unudaraq siyasət meydanında tanınmaq istəyirdilər.

Bütün bunları görən Naxçıvan Vilayət partiya komitəsinin katibi Nüreddin Mustafayev mitinq iştirakçılarının üzərinə hərbiçilərdən ibarət silahlı dəstələr göndərmişdir.

Şəhərin küçələrində ilk dəfə görsənən rezin təkərli BTR-lər Lenin meydanında yığışmış əhalinin üzərinə tərəf yeriyirlər. Nəticədə bir neçə nəfər ciddi xəsarət alır, qəzəblənmiş adamlarsa benzin doldurulmuş şüşə butulkalarla ağır hərbi maşınların ikisini yandırmışlar.

13. Mitinqlərin keçirilməsinə Moskva hökuməti icazə vermişdir.

Bundan sonra camaat daha da qəzəblənərək katibin istefasını tələb edirlər.

Bütün bu mənzərəyə otağından sonuncu dəfə seyr etmiş katib əvvəlcədən çağırdığı hərbiçilərin köməyilə binanın arxa qapısında çıxaraq birbaşa maşınla İrəvana qaçmışdır.

Həmin vaxtlarda Naxçıvandakı Xalq cəbhəsinin fəalları günü-gündən çoxalaraq xalqı azadlıq və müstəqilliyə səsləyirdilər.

Xalqımızın "azadlıq" günləri başlayır...

Haşiyə;

Bir gün tanıdığım N. adlı köhnə tanışlardan birini gördüm mərkəzi meydanda gəzinirdi. Ondan hal-əhvalını soruşduqda kinayəli gülərək dedi: "Azad vətəndaşam, azadlıq meydanında gəzirəm özüm üçün, işsiz-gücsüz cibi boş..."

Naxçıvandakı istehsal sahələri dayandığından xalq yerlərdə qara bazarlar açaraq alverlə başlarını qatmışdır. Camaat İrandan gətirdikləri saqqız və güllü köynəkləri, saat və ərzaq mallarını satmaqla dolanırdı. Əhali qiymətli sovet mallarını kütləvi sürətdə İrana aparıb ucuz qiymətə olan mallara dəyişir, çətinliklərə qatlaşırdılar. Həmin illərdə dövlətin güc nazirliklərində fəaliyyət göstərən SƏDM (Sosialist əmlakını dağıdanlarla mübarizə) şöbələri ilə Xalq nəzarəti Komitələri gücdən düşərək ləğv olunmaq iqtidarında idilər. Nüfuzlu Sovet milisi işçiləri xüsusi geyim formalarına (paqonlarına) biganəlik göstərirdilər.

1989-cu ilin payızında Azərbaycan Xalq Cəbhəsi partiyasının könüllü dəstəsi tərəfindən Naxçıvandakı Araz boyu sərhəd zolağındakı tikanlı məftilləri sökməyə qərar vermişlər. Həmin ilin 31 dekabr tarixində "azadlıq" haraylayan cəbhəçilər balta, mişar, bel, külünc götürərək sərhəd zonasına gedirlər. Nədənsə həmin özbaşınalığa Naxçıvan sərhəd qoşunları qarnizonu ilə Moskva rəhbərlikləri əhəmiyyət vermirlər. Nəticədə həmin gün Araz çayı boyu tonqallar yandırılır, sərhəd dirəkləri kəsilir, mühəndis-texniki qurğular söküləərək dağıdılır. (Sonrakı illərdə Naxçıvan MR Ali məclisində sədr işləyərkən cənab H.Ə.Əliyev cəbhəçilərin belə özbaşınalıqlarını haqlı surətdə pisləmişdir.)

1990-cı ilin əvvəli Azəri türkləri üçün əzab-əziyyətli və qanlı-qadalı olmuşdur. Ermənilər Qarabağ vilayətində yaşayan Azərbaycanlı vətəndaşları yurd yerlərindən qovaraq, əllərinə keçənləri vəhşiliklə burun-qulaqlarını kəsib öldürmüşlər. Nədənsə xalqımızın haray və imdad səsinə nəinki Moskva hökuməti, o cümlədəndə, Bakı hökuməti rəhbərləri (Ə.Vəzirov, E.Qafarova, A.Mütəllibov, V.Hüseynov və başqaları) əhəmiyyət verməyərək susmuşlar.

Azərbaycanın bütün bölgələrində dövlət əleyhinə mitinqlər keçirilərək sosialist sisteminin ləğv olunmasını istəyirdilər. Xalqın əzab və əziyyətli günləri gün-bəgün artıb çoxalırdı.

Bakı radiosu ilə televiziyasında dövlət senzurasının icazəsi olmadan efirə verlişlər buraxılmırdı. Xəbərlərin əksəriyyəti saxtalaşdırılırdı. Təkcə Naxçıvan radio-televiziyasının xəbərləri xalqa real məlumatların çatdırılmasına diqqət yetirirdi.

Bakıda azadlıq "carçısı" N.Pənahovun başçılığı ilə lenin meydanında kütləvi mitinqlər keçirilir, xalqı ruhlandırılırdı. Həmin ilin yanvarın 20-də axşamdan camaat həmişəki kimi Hökumət evinin qarşısındakı meydana toplaşmış buradakı ehtirazlı, hədələyici mitinq çıxışlarından sonra və kütləvi sürətdə Azərbaycan Ali Sovetinin binasına tərəf hərəkətə keçirlər. Camaat burada Azərbaycan rəhbərlərini hədələyərək onların istefasını tələb edirlər.

Artıq gecədən keçərək yanvarın 21-də "cəbhəçi bəylər" əvvəlcədən aradan çıxdıqlarından şəhərin küçə və meydanlarında tırtırlı ağır tankların səsləri eşidildi. Rus seçmə əsgərləri avtomat silahlarından (qadağan olunmuş güllələrlə) mitinqdıki kütləni atəşə tutdular.

Tırtırlı tanklar küçəni işıqlandıraraq qaçan adamların üstünə tərəf yeridilər. Mitinqə yığışmış adamlar vahimə içərisində xaotik sürətdə qaçışmağa,bağırıb qışqırmağa başladılar. Tezliklə günahsız və taqətsiz İnsanlar avtomat güllələrinə tuş gələrək yıxılıb tank tırtırlarının altında parçalanmaqla şəhid oldular.

Sovet tankalrı hərəkət edərək küçələrdəki şəxsi minik avtomobillərini, ətrafdakı gülkarlıqları əzərək nümayiş iştirakçılarını qovurdular.

Yetmiş ildən sonra Bakıda ikinci dəfə olaraq kütləvi qırğınlar yaranmış və şəhidlərin məzarları xalqımızın qəlbinə dağ çəkmişdir...

Həmin ərəfədə Azərbaycan odlu-şöləli ocağa bənzəyirdi. Azərbaycan KPMK-ın birinci katibi Ə. Vəzirov (1930-....) çarəsizliyindən Bakıdan Moskvaya getmişdir.

1990-cı ilin 20 yanvar tarixində Ermənistan silahlı dəstələri tərəfindən Naxçıvanın Sədərək ərazilərinə də basqınlar olmuşdur. Müasir silahlarla silahlanmış Sovet əsgərləri Sədərək kəndi ərazilərini "Alazan" tipli raketlərlə atəşə tutmuşlar.

Həmin vaxtlar Kərki kəndi artıq ermənilərin əlində olduğundan oradakı mühüm mövqelərdən atəş açmaqla Sədərək kəndinin mülkü evlərini, şərab emalı zavodunu, məktəb və xəstəxana binalarını raket zərbələri ilə dağıtmışlar. Kərki ilə Sədərək xalqı öz doğma yurdlarından qaçqın düşmüşlər. Döyüşlərdə ölənlər olmuşdur. Bakı və Naxçıvandakı hadisələrə görə Azərbaycan xalqı üç gün matəm saxlamış, məscidlərdə şəhidlərin ruhuna xutbələr oxunmuşdur. 1990-cı ilin ilk aylarında Ermənistan silahlı dəstələri tərəfindən Naxçıvanın sərhəd kəndləri olan Havuş, Cağazir, Yuxarı Yaycı, Şada, Kərməçataq, Kükü, Biçənək, Keçili, Ərəfsə və başqa yerlərə aramsız silahlı basqınlar olaraq əhalinin mal-qarasını, heyvan sürülərini aparmış elə keçən adamları isə girov götürmüşlər.

Naxçıvan hökuməti tərəfindən Ermənistanın Naxçıvan ərazilərinə qanunsuz basqınları hadislərini Bakı və Moskvaya bildirilsə də əhəmiyyət verilməmişdir. Əksinə olaraq həmin hadisələri Moskva televiziyası xəbərlər proqrda Naxçıvan vətəndaşları tərəfindən ermənilərə basqınları bildirilmişdir. Bütün bunlar isə Naxçıvanlıları hiddətləndirmiş nəticədə Naxçıvan Ali Soveti tərəfindən keçmiş Qars müqaviləsinin şərtlərinin kobudluqla pozulduğuna görə qərar qəbul edilmişdir.

Həmin qərara görə müqavilə şərtləri pozulduğundan və SSRİ hökuməti tərkibindən çıxmaqla Bakı və Moskvaya bildirilmişdir. Naxçıvan Ali Sovetinin qərarı Naxçıvan televiziyasında göstərilmiş və qəzetlərdə dərc olunmuşdur. Daha sonra Naxçıvan hökuməti tərəfindən dünya dövlətlərinə ermənilərin çirkin əməlləri bəyanatla bildirilmişdir.

Həmin bəyanatda qonşu İran və Türkiyə dövlətlərindən kömək və yardım istənilmişdir.

Naxçıvan hökumətinin bu qərarı SSRİ-nin müttəfiq respublikalarında bildirilərək sonradan onlara da təsirini göstərmişdir.

Həmin tarixdən də qüdrətli Rus-Sovet dövlətinin tərkibindən çıxan Naxçıvan Muxtar Respublikası sərbəst sürətdə Azərbaycanın tərkibində qalmışdır.

1990-cı ilin avqust ayında bütün bu hadisələri daim izləyən və xalqa ədalətsiz mövqedə olan rəhbərləri pisləyərək Moskvada yaşayan Heydər Əlirza oğlu Əliyev qətiyyətlə bəyənatını bildirmişdir. Bundan sonra Moskvadan Bakıya təyyarə ilə gələrək Şəhidlərin məzarlarını ziyarət edir, xalqın dərdinə şərik olmaq üçün rəhbər işçilərlə görüşüb məsləhətləşmək istəyir. Lakin Azərbaycan rəhbər işçiləri onun Azərbaycana gəlişindən heç də sevinməyərək soyuq qarşılayırlar.

Daha sonra H.Əliyev Naxçıvana gəlməli olur.

Naxçıvan camaatı Azərbaycanın keçmiş rəhbəri olmuş H.Ə.Əliyevi sevinclə qarşılayırlar.

H.Əliyev Naxçıvanlılarla görüşərək gəlməyinin mərı bildirir, vətən, torpaq və din yolunda şəhid olan həmyerlilərinin ruhlarına Allahdan rəhmət diləyir və erməni quldurlarına nifrətini göstərir. Tezliklə qədirbilən Naxçıvanlılar onu Naxçıvan hökumətinə rəhbər vəzifəyə seçirlər. H.Ə.Əliyev Naxçıvanda işlədiyi vaxtlarda çox gərginlik şəraitində bir çox işlər görmüşdür.

Belə ki, İran və Türkiyə dövlətləri ilə Naxçıvan hökuməti arasında ərzaq və elektrik enerjisi müqavilələri bağlanmaqla xalqı çətin vəziyyətdən qismən də olsa çıxara bilmişdir.

H.Əliyev Naxçıvanda 70 il öncə M.Ə.Rəsulzadənin rəhbər olduğu ADR-da qaldırdığı üç rəngli müstəqillik bayrağını qaldırmışdır. Xalqını birliyə, dözümlülüyə, tərəqqi və ədalətli olmağa çağırmışdır.

H.Əliyev Naxçıvanda işlərkən (artıq Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində idi) kadr seçməkdə uğursuz olmuşdur. Belə ki, cəbhəçi bəylərdən dövlət əhəmiyyətli mühüm vəzifələrə keçdikdən sonra, şəxsi mənafelərini güdərək H.Əliyevin müdrüklüyünə etimad bəsləməyərək özbaşınalıqla vəzifələrini tərk etməli olmuşlar. Onlardan Naxçıvan MR Nazirlər Kabinetinin sədri Becan Fərzəliyev, Ali Məclisin sədr müavini Qafar Hacıyev və başqalarını göstərmək olar.

1990-cı ilin ortalarında Qarabağda Moskva hökumətinin göstərişi ilə Volskinin başçılğı ilə xüsusi idarə etmə komitəsi yaradılır. Komitənin bütün işləri ərazidəki ermənilərin xeyrinə işlər aparır.

Bakıda yenidən mitinqlər keçirilərək Sovet ordusuna qarşı çıxışlar olunmaqla Azərbaycan ərazilərindən çıxarılmasını tələb edilir.

Həmin il Azərbaycanda prezident seçkiləri kampaniyasına başlanılır. Naxçıvan Muxtar Respublikasından başqa Azərbaycanda da prezident seçkiləri keçirilərək yeganə namizəd A.Mütəllibov "seçilir".

Bakı və Sumqayıt şəhərlərində axşamdan sübhədək hərbi komendant saatları tətbiq olunur. Qarabağın ətraf bölgələrində ermənilərlə azərbaycanlılar arasında məhəlli döyüşlər olduğundan, itkilər verilərək şəhidlərin sayı artır.

Rus Sovet ordusunun 366-cı moto-atıcı divizyası Qarabağdakı erməni siahlılarına himayədarlıq göstərirlər. Həmin ərəfədə Moskvada da prezident seçkiləri keçirilərək yeganə namizəd olan B. N. Yeltsin (1931-2007) Rusiya federasiyasına prezident olur.

Moskvada SSRİ-nin prezidenti M.Qarbaçovla Rusiyanın prezidenti B.Yeltsin arasında münaqişələr baş verir. Bütün bunlardan istifadə edən Azərbaycan xalqının təkidi ilə Rus Sovet ordusu əsgərləri Azərbaycan ərazilərindən çıxarılır.

1990-cı ilin payızında Naxçıvan hərbi qarnizonu əsgər və zabit heyyəti sursat və hərbi texniki avadanlıqları təhvil verməklə Rusiyaya gedirlər. Bütün hərbi sursat və texnika Naxçıvandakı Xalq cəbhəsinin könüllü müdafiyə dəstələrinin əlinə keçir. Naxçıvan hərbi qarnizonunun qərərgahını H.Əliyevin iştirakı ilə yeni yaradılmış Azərbaycan Milli ordusunun əsgərlərinə təhvil verirlər. Həmin mərasimdə Bakıdan gəlmiş Azərbaycan Müdafiə Naziri R.Qazıyevlə Daxili İşlər naziri İ.Həmidov da istirak etmişlər.

Elə həmin ərəfədə Qarabağda erməni silahlı dəstələri tərəfindən Laçınla Şuşa şəhərləri tutularaq ələ keçmişdir.

Azərbaycan prezidenti A.Mütəllibov hadisədən qorxaraq Moskvaya qaçır, onun yerinə isə müvəqqəti olaraq Ali Sovetin sədri Y.Məmmədov keçir.

1990-cı ilin 31 dekabr tarixində SSRİ-nin prezidnti M.Qarbaçov Moskvanın Mərkəzi Radio və Televiziya kanalları ilə çıxış edərək Sovet dövlətinin ləğv olunmasını bildirib Leninin şəkli olan kommunist biletini yandırır. SSRİ dövləti süquta yetdikdən sonra M.Qarbaçov istefaya çıxır.

1991-93-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri cənab Heydər Əlirıza oğlu Əliyev (1923-2003) olmuşdur.

1991-ci ildə Azərbaycan xalqı üçün böyük itkilər olmuşdur. Azərbaycanın görkəmli elm və dövlət adamları Qarabağ ərazisinə vertolyotla uçarkən naməlum səbəblərdən raket atəşi ilə vurulur. Hadisənin səbəbini bildirən "qara qutu" isə hadisə yerində bilərəkdən yoxa çıxarılır. Qəza yerinə gedənlər oradakı dəhişətli hadisənin şahidi olaraq yanıb külə dönmüş (cəsədlər sonradan yandırılmışdır) cənazələri Bakıya gətirib dəfn etmişlər...

1991-ci ilin 9 noyabr tarixində Türkiyənin səkkizinci Prezidenti cənab Turqut Özal (1927-1997) Orta Asiya dövlətlərindən Bakiya gələrkən Azərbaycan xalqına dəstək olmuşdur. 1992-ci ilin 28 may tarixində isə Türkiyənin doqquzuncu Prezidenti cənab Süleyman Dəmirəl, Naxçıvana gələrək H. Əliyevlə görüşüb və Araz çayı üzərindən körpü salınmasını bildirmişdir.

1992-ci ilin 7 iyun tarixində Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Qədirqulu oğlu Əliyev (Elçibəy) yeganə namizəd kimi prezident seçilmişdir. Seçilmiş Prezident Azərbaycan parlamenti qarşısında Qurana əl basaraq xalqını, vətənini və müstəqilliyi qorumağa and içmişdir.

Azərbaycan palamentinin iclaslarında deputatlar tərəfindən yeni qanunlar qəbul olunur. Dövlət milliləşdirmə siyasətinə keçərək qərara alırlar ki, millət-Azəri türkü, dil-Azərbaycan dili, yazı qrafikası isə kril əlifbasından latın əlifbasına keçməklə bir neçə hərf və işarələr ləğv olunsunlar. Dövlətin bayraqla gerbi 1918-ci ildə qəbul olunmuş atributlarla əvəz olunaraq, çoxpartiyalı bir palatalı olmaqla Prezidenti, Milli Məclisi, Nazirlər Kabineti və Ali Məhkəmədən ibarət idarə etmə kapitalist sistemli forma daşıyır. Azərbaycanda yaşayan bütün vətəndaşların demokratik formalı azadlığı, milli və digər hüquqlarının qorunması haqqında yeni əsas qanun sayılan Konstitutsiyası qəbul olunmuşdur.

Azərbaycanda milli pul vahidləri tədavülə buraxılır. SSRİ-nin keçmiş 1 rublu yeni pul vagidi ilə 10 qəpiyə barəbarə olur. 1, 5, 10, 50, 100, 250, 500 və 1.000 manat saylı kağız pullar banklardan əhaliyə buraxılmışdır. Prezident Əbülfəz Əliyevin səriştəsizliyindən istifadə edən Maliyyə Nazirliyi tərəfindən bütün gündəlik tələbat mallarının qiymətləri on dəfə qaldırılmışdır. Bütün bu işlərdən əhali təşvişə düşərək az təminatlı ailələr çətinliyə düşürlər.

Həmin ərəfədə Qarabağ ərazilərindəki erməni quldurları məhəlli döyüşlərini davam etdirməklə ərazilərimizi ələ keçirirlər.

Qarabağ döyüşlərindəki hərbi hisslərdə qulluq edən hərbiçilərimiz özbaşınalıq edir, köhnə komandir zabit heyyəti yeniləri ilə əvəz olunur, döyüş və taktika adiləşdirilir.

Həmin dövürdə hərbi hissə komandirləri zabitlərinin əksəriyyəti hərbidən başı çıxmayan adamlarla əvəz olunmuş, əvvələr Sovet əmlakını dağıdaraq məhkum olunmuş vətəndaşların əlinə keçir. Komandirlər gənc əsgərlərə təlimlər vermək əvəzinə onlara cismani işgəncələr verərək rüşvət alıb və ərzaq təminatını açıq-aşkar bazarlarda satdırırlar.

Silah ambarları nəzarətsiz qaldığından hərbi hissələrdə anarxiya nəticəsində sursatlar qara bazarda satılmaqla, silah ambarlarının partladılması halları da baş vermişdir.

Azərbaycan Prezidenti Əbülfəz Əliyev hakimiyyətə gəlməklə dərhal siyasi ambisiyalar yaradılmış Rusiya və keçmiş müttəfiq respublikalarla, o cümlədən də, qonşu İran İslam Respublikası ilə iqdisadi və mədəni əlaqələr pozulur.

Yeganə Türkiyə Cumhuriyyəti ilə əlaqə saxlanılaraq siyasi gərginliklər çoxalır.

Həmin illərdə yalnız Türkiyə dövləti Azərbaycanın suverenliyini tanımışdır.

Azərbaycanın əsas dövlət idarə edici postlarına ixtisası və bacarığı olmayan "cəbhəçi bəylər" təyin olunurlar. Keçmiş dövlət və partiya rəhbərləri işlərindən uzaqlaşdırılaraq qanun qaydalar pozulur. Həmin illərdə Naxçıvanda gərginlik və özbaşınalıq halları daha da çoxalmışdır. Belə ki, Rusiyadan gələn yük qatarları Ordubad, Culfa, Naxçıvan və Şərur dəmir yolu stansiyalarında dayandırılaraq qarət olunur.

Vaqonların içərisindən tranzit "Volqa" avtomobilləri, xaricdə hazırlanmış mebel dəstləri, müxtəlif ərzaq və sənaye malları imkanlı adamların əlinə keçir.

Bütün bu və digər işləri Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyev iclaslarda tənqid edərək pisləmişdir. Budan sonra ermənilər Bakıdan gələn dəmir yolunu Mehri rayonu ərazisindən bağlayırlar. Ermənilər Naxçıvana gələn yüksək gərginlikli elektrik xəttlərini açıb və Gorus ərazisindən keçib gələn qaz kəmərini də bağlayırlar. Naxçıvan və Naxçıvanlılar blokada vəziyyətinə düşürlər.

Dözümlü və mübariz Naxçıvanlılar Sədərək rayonu ərazisindən Araz çayı üzəri ilə Türkiyəyə körpü salırlar.

1992-ci ilin sentyabr ayında “Ümüd körpüsü”nün inşası başa çataraq uğurlu yolunu dinbir, dilbir qardaşlarını salamlayır.

Naxçıvandan Türkiyəyə yol açılanda hər iki tərəf vətəndaşlarından təzə “iş adamları” yaranmışlar. Naxçıvandan maşınlarla dolu neft və dizel yanacağı ilə bərabər bir çox “mallar” da aparılaraq ərzaq gətirilirdi. Naxçıvanda təzə “qara bazarlar” yaranmağa başlamış, əhali alış-verişlə başlarını qataraq siyasətlə maraqlananlar artıq para ilə öyünürdülər.

İmkanlı adamlar bu cür bazarlardan böyük qazanclar əldə edib öz şəxsi durumlarını möhkəmləndirirdilər.

Güc nazirliklərində keçmiş kadırlar yeniləri ilə əvəz olunduqlarından, onların himayələri ilə “biznesmenlər” yaranaraq idarə və müəssisələrin qiymətli işlək qurğu və avadanlıqlarını “qara metal” kimi talan edib xarici inhisarlara satırdılar. Hərbi hissələrdə də talançılıq yüksək mövqedə durmuşdur. Müxtəlif markalı işlək avtomobil və strateji mexaniki maşınlar balanasdan silinməklə imkanlı adamlar tərəfindən pərakəndə qiymətlərə satılırdı.

Naxçıvanda sinfi təbəqələşmə yaranaraq çörək pulu qazanmaq xatirinə “qul bazarları” əmələ gəlirdi. (Kapitalizmin əsas xüsusiyyətlərindən biri də sinifli cəmiyyətin olmasıdır).

Allahın elə bil ki həmin illərdə Naxçıvanlılara qəzəbi tutmuşdur.

Bir yandan blokada gərginliyi digər tərəfdən də havaların qarlı-şaxtalı keçməsi nəticəsində əhali ağac və kolları kəsərək (məhv edərək) qızınmaq üçün sobalarında yandırırdılar. Belliklə bir neçə ilin içərisində Naxçıvan Muxtar Respublikasının ekoloji tarazlığı pozulmuş, təbiətə (yaşıllığa) ciddi ziyan vurulmuşdur.

Müxtəlif partiyalardan olan siyasətbazlar ölkəmizdə təxribatlara əl atmışlar. Onlar SSRİ-nin dağılması fürsətindən istifadə edərək Azərbaycan Respublikasını ayrı-ayrı “xanlıqlara” bölmək istəyirdilər. Milli Məclisin iclasları anarxiya mövqeyində dayanaraq, deputatlar parlamentin iş saatlarında iclas zalında siqaret çəkir, bir-birləri ilə mənasız söhbətlər apararaq vaxtların keçirirdilər. 1992-ci ilin 25 fevral tarixində Azərbaycan xalqının başına faciəli bəla gəldi. Sərişləsiz rəhbərlərin ucbatından ermənilər Şuşa, Kəlbəcər və Xocalı şəhərlərini də ələ keçirmişlər.

Xocalı faciəsi tarixdə görünməyən bir qanlı hadisələrlə nəticələnmişdir.

Dinc əhalidən 613 nəfər şəhid olmuş, 1275 nəfər əsir düşmüş, 7 ailə tamamılə məhv edilmiş, 320 ailə başsız qalmış, 200 nəfər şikəst olmuş, körpə uşaqların başı kəsilərək, ürəkləri çıxarılaraq, müxtəlif orqanları kəsilməklə məhv olmuşlar.

Xocalı faciələrini dünyanın müxtəlif ölkələrinə bildirilmişdir. Sülhsevər dövlətlər haqq səsimizə qoşulmayaraq, təkcə ABŞ-ın Humanitar Yardım Təşkilatı (ADRA) tərəfindən bir neçə il müxtəlif zəruri ərzaq bağlamaları göndərilmişdir.

1992-ci ilin 21 noyabr tarixində Naxçıvanda H. Əliyevin sədirliyi ilə "Yeni Azərbaycan Partiyası" (YAP) yaradılmışdır.

Kəlbəcər torpaqları gedəndən sonra ordu arasında çaxnaşma düşmüşdür.

Prezident Əbülfəz Əliyev tərəfindən verilmiş Xalq qəhrəmanı, komandir S.Hüseynovun başçılıq etdiyi silahlı dəstə hökumət əleyhinə hərbi çevriliş etməklə, dəstəsi ilə Bakıya tərəf hərəkətə keçir. Bütün bu işlərdən vahiməyə düşən prezident Ə.Əliyev, 1993-ci ilin iyun ayında xalqa xəbər vermədən Bakıdan Naxçıvana təyyarə ilə gələrək Ordubadın Kələki kəndinə qaçır...

Həmin hadisələri izləyən H.Ə.Əliyev bu işlərə narahat olaraq Naxçıvandan təyyarə ilə Gəncəyə uçur və oradakı xoşagəlməz hadisələrdən xəbər tutaraq birbaşa Bakıya gedir.

1993-cü ilin 15 iyun tarixindən Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə əvvəllər Daxili İşlər Nazirliyində işləmiş Namiq Həsənov təyin olunmuşdur.

Bakıda H.Əliyev radio televiziya kanalları ilə yaranmış fövqəladə hadisəni açıqlayaraq xalqı səbrli olmağa çağırır.

Tezliklə H.Əliyev Bakıda Milli məclisə sədr seçilir və müvəqqəti prezident səlahiyyətlərini həyata keçirir. O, dərhal Rusiya və keçmiş müttəfiq ölkələrlə əlaqələri bərpa edib, İran İslam Respublikası ilə yaranmış təzadları sahmanlayır. Ölkələrlə mədəni və iqdisadi əlaqələri bərpa etməyə nail olur.

H.Əliyev Türkiyə və İran dövlətləri ilə qarşılıqlı mədəni-iqdisadi əlaqələri möhkəmlətmək üçün müxtəlif müqavilə protokollarını təsdiq etdirir.

H.Əliyev həmçinin dünya dövlətlərindən ABŞ, Fransa, İngiltərə, Danimarka, Belcika, Çin, Səudiyyə Ərəbistanı, İsrail və Pakistanla mədəni dostluq əlaqələrini də yaratmışdır.

Bundan başqa o, ermənistan dövləti başçıları ilə ayrı-ayrı ölkələrdə sülh danışıqları aparmışdır. H.Əliyevin qayğısı ilə qaçqın və köçkün ailələrə maddi köməkliklər göstərilərək xalqı bəladan qurtarmağa çalışmışdır.

1993-cü ilin noyabr ayında Heydər Əlirza oğlu Əliyev cənabları Azərbaycan xalqının demokratik səsverməsi ilə qanuni prezidenti seçilmişdir.

Xalq cəbhəsinin vəzifəli "bəyləri" prezidenti nüfuzdan salmaq üçün ayrı-ayrı yerlərdə hərbi çevriliş və sui-qəsdlər törətmək istəmişlər.

1993-cü ildə Naxçıvan şəhərində Siyavuş Mustafayevin başçılığı ilə silahlanmış adamalar mühüm strateji yerlərə basqınlar etmişlər.

Şərur rayonundakı Şahmərdan Cəfərovun, Ordubadda Fərəc Quliyevin, Culfada Ramiz Kərimlinin, Babəkdə Büny Qənbrəlinin, Naxçıvanda isə Fəxrəddin Qurbanovun silahlı dəstələri dövləti çevirmək məqsədi ilə cəhdlər göstərmişlər.

Bakıda prezident H.Əliyevə Şərurlu Fərəməz Allahverdiyevin başçılığı ilə sui-qəsd hazırlansa da baş tutmayaraq qəsdçilər ifşa olunmuşlar.

1993-cü ilin payızında Füzuli və Cəbrayıl rayonları sərhəd bölgələrində komandir Əliəkrəm Hümbətovun başçılığı ilə hərbiçilər (əsgərlər) kəndləri boşaldaraq əraziləri erməni quldurlarının ixtiyarına vermişlər. Həmin hadisələrlə əlaqədar əhalimizdən yeni qaçqınlar olmuş, Araz çayından İran ərazisinə keçərkən çoxları suda boğulmuşlar. Fərsiz hərbi komandirlərimizin Vətənə xainlikləri ucbatından erməni dəstələri yerlərdə müqvimətə rast gəlmədən ərazilərimizə "sahib çıxmışlar".

Komandir Ə.Hümbətov elədiyi əməlinə utanıb-çəkinmədən silahlı dəstəsi ilə birlikdə Lənkərana gedərək orada "Talış-Muğan Respublikası" yaratmaq istəmişdir. Tezliklə xalqın nifrətinə səbəb olan Vətən xainləri tutularaq ifşa olunmuşlar.

1994-cü ildə Bakıda Daxili İşlər Nazirliyinin əməkdaşları-Cavadov qardaşları silahlı üsyan edərək H.Əliyev hökmətinə qarşı terror dəstəsinə başçılıq etmişdir.

Həmin hadisə ilə əlaqədar prezident H.Əliyev respublika əhalisinə üzünü tutaraq radio və televiziya efirində müraciət etmişdir. O, müracitəində terrorçu qruplaşmaları pisləmiş, xalqı birliyə və səbrli olmağa çağırmışdır.

Xalqın nifrətini qazanmış Cavadov qardaşları qısa müddətli atışmalardan sonra dəstəsi ilə birlikdə təslim olmuşlar.

Azərbaycanda terrorçuluq qəsdləri artaraq “cəbhəçi bəylər” tərəfindən Naxçıvan şəhərində hələ Sovetlər dövründə qurulmuş H.Əliyevin büst heykəlinə qumbara atılmışdır.

Bundan başqa Bakıda teatırla bir neçə ictimai binalar yandırılmış, metro da qatarlar partladılmış, təyyarə və gəmi limanlarında o cümlədən də yol üstü körpülərdə və sairə yerlərdə qoyulmuş partladıcı qurğular aşkar edilrək zərərsizləşdirilmişdir.

1994-cü ilin ortalarında Azərbaycan Maliyyə Nazirliyi tərəfindən banklardan 10.000 manatlıq kağız pullar tədavülə buraxılır. Həmin vaxtlarda 35 manat 01 ABŞ dollarına bərabər idi.

1994-cü ilin payızında Azərbaycan D.İ.N.-nin təcridxanasından məhkum olunmuş R.Qazıyev, S.Hüseynov, Ə.Hümbətov və Cavadov qardaşları naməlum səbəblərdən qaçırdılmışlar.

Naxçıvanda əvvəllər Vilayət Komitəsinin Katibi işləmiş Milli məclisin müavini Afiyyəddin Cəlilova (1946-1994) naməlum adamlar tərəfindən qəsd törədilərək öldürülmüşdür...

Azərbaycan xalqı neçə ildir ki çətin günlərini yaşayaraq nikbin mövqedə dayanmışlar.

1995-ci ilin may ayından Azərbaycanla Ermənistan rəhbərləri arasında danışıqlar aparılaraq hər iki dövlət hərbiçiləri arasında atəşkəsin dayandırılması protokolu imzalanmışdır. Lakin atəşkəs protokolu imzalansa da sərhədlərdə arasıra atışmalar baş verərək, günahsız əsgərlərimiz şəhid olurdular.

1995-ci ilin 16 dekabr tarixindən Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinə cənab Vasif Yusif oğlu Talıbov seçilmişdir.

1995-ci ilin payızında banklardan 50.000 manatlıq kağız pullar tədavülə buraxılmışdır. Pərakəndə satış qiymətləri durmadan artırıldığından milli 1, 5, 10, 50 və 100 saylı kağız pullar dövriyyədən düşmüşlər.

1996-cı ildə ölkə prezidentinin gərgin əməyi sayəsində bütün dünyanın inkişaf etmiş dövlətləri Azərbaycanı tanıyaraq ədalətli tədbirlər görürlər...

Dekabr ayının 1-dən 3-dək Portuqaliyanın Lissabon şəhərində dünyanın 54 dölətinin ATM (Avropa Təhlükəsizliyi Məsələləri) xətti ilə "Zirvə toplantısı"keçirilmişdir. Buradakı 53 dövlətin nümayəndələri bir səslə Azərbaycan prezidenti cənab H.Ə.Əliyevin haqq səsinə qoşularaq ərazimizin suverenliyi və toxunulmazlığına tərəf saxlamışlar. Toplantıda yekdilliklə səs verilərək Azərbaycan Respublikasının suveren dövlətçiliyinə haqq qazandırmaqla protokol sənədlərinə imza atmışlar. Qəbul olunmuş tarixi siyasi sənəddə dövlətimizin ərazi bütövlüyü tanınmış, ermənilərin törətdikləri əməllər pislənilmiş, onların qanunsuz tutduqları ərazilər qaytarılmaqla qaçqınların yurdlarına qayıtmaları təmin edilərək həyata keçirilməlidirlər. Bundan başqa sənəddə Qarabağ ərazilərində yaşayan erməni əhalisinin hüqüqları təminatı bərpa olunmaları da göstərilmişdir. Dağlıq Qarabağ əraziləri Azərbaycanın tərkibində qalmaqla inzibati regiona Muxtariyyat hüqüqları statusu verilməsi sənədi imzalanaraq təsdiq olunmuşdur.

Belə bir tarixi siyasi sənədin dünya dövlətləri tərəfindən qəbul olunması xalqımızın sevincinə səbəb olmuş, Qafqazda sülhsevər dövlətlərin əmin-amanlığına təminat vermişdir.

Azərbaycanda sülhün və əmin-amanlığın bərqərar olmasına Allah kömək olsun.



Feyruz Bağırov

Feyruz Abdulla oğlu Bağırov 1946-cı ildə Naxçıvan şəhərində dindar ziyalı ailəsində anadan olmuşdur.

"Fars və Ərəb dilləri kursu"nu bitirən F. Bağırov uzun illərdir ki, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Comiyyətinin fəal təbliğatçısıdır.

O, 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək Veteranı fəxri adını almışdır.

Əsərləri

"Ziyarətnamə" (1996)
"Nuh yurdu-Naxçıvan" (1999)
"Əzablı günlər" (2006)
"Naxçıvanın təbii sərvətləri" (2007)
"Nuh yurduna ziyarət" (2008)
"Axirət fədaisi" (2009)
"Tarixin yaddaşı" (2010)
"Dünya həyatı" (2013)
"Müsəlmanın maraq dünyası" (2014)
"İslam mədəniyyəti" (2015)
"Dərman bitkiləri" (2016)
"Yamanlığa yaxşılıq" (2016)

www.nuhyurdu.com
info@nuhyurdu.com

9 789956 123456